**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “ƏMƏK MİQRASİYASININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİNİN TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Aslanov Rauf Qafqaz**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**“____” ________________ 2021-ci il**

# “ƏMƏK MİQRASİYASININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİNİN TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 İqtisadiyyat**
**İxtisaslaşma: Əməyin iqtisadiyyatı**
**Qrup: 94**


**Magistrant:**
**Aslanov Rauf Qafqaz oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Mikayılov Fərhad Qamboy oğlu**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**


**BAKI – 2021**

## Elm andı

Mən, Aslanov Rauf Qafqaz and içirəm ki, “Əmək miqrasiyasının ölkənin sosial-iqtisadi inkişafına təsirinin tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“ƏMƏK MİQRASİYASININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİNİN TƏDQİQİ”**

**XÜLASƏ**

**Mövzunun aktuallığı: Əhali miqrasiya prosesləri tarixən mövcud olmuş və müasir qloballaşan zamanda daha da intensiv hal almışdır. Miqrasiya prosesləri hər bir ölkənin tarixində baş verən və daim baş verəcək hadisədir. Bu səbəblərdən miqrasiya prosesləri daim tədqiq olunmalı, müvafiq prosesin iqtisadi-sosial həyata təsiri məsələləri mütəmadi təhlil olunmalı və sözügedən prosesin tənzimlənməsi daim təkmilləşdirilməlidir.**

**Tədqiqatın məqsədi: Dissertasiyanın məqsədi Azərbaycan Respublikasında baş verən miqrasiya proseslərini öyrənmək və bu proseslərin ölkənin sosial-iqtisadi həyatına təsirlərini təhlil etməkdir.**

**Tədqiqat metodları: Dissertasiya işində təhlil və sintez metodlarından, statistik təhlil metodundan və müqayisə metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işinin tərtib olunması üçün informasiya bazası olaraq müxtəlif yerli və xarici ədəbiyyatlardan, elmi jurnallardan, “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”nin statistik hesabatlarından və “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti”nin hesabatlarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Dissertasiya işinin tərtib olunması zamanı yaranan məhdudiyyətlər dünyanı bürüyən pandemiyaya görə kitabxanaların yerində fəaliyyət göstərməməsi olmuşdur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat zamanı miqrasiya prosesləri araşdırılmış, müvafiq proseslərin ölkənin iqtisadiyyatına, sosial həyatına, əmək bazarının müasir vəziyyətinə və digər istiqamətlərə təsiri araşdırılmış və müəllif baxışları qeyd olunmuşdur.**

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri: Dissertasiyanın nəticələrindən miqrasiyanın elmi və praktiki istiqamətli araşdırılmasında, miqrasiya proseslərinin tarixən yaratdığı problemlərin qabağının alınması məqsədilə istifadə edilə bilər.**

**Tədqiqat işinin nəticələri tədris fəaliyyətində eyni zamanda əmək fəaliyyəti və miqrasiya proseslərinin öyrənilməsini özündə ehtiva edən ixtisasların tədrisi zamanı istifadə oluna bilər.**

***Açar sözlər: miqrasiya, əmək miqrasiyası, əmək bazarı,sosial-iqtisadi inkişaf***

**“STUDY OF THE EFFECT OF LABOR MIGRATION ON THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE COUNTRY”**

**SUMMARY**

**The actuality of the subject: Population migration processes have historically existed and have become more intensive in modern globalization. Migration processes are a constant event in the history of each country. For these reasons, migration processes should be constantly studied, the impact of the relevant process on economic and social life should be regularly analyzed, and the regulation of this process should be constantly improved.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to study the migration processes taking place in the Republic of Azerbaijan and to analyze the impact of these processes on the socio-economic life of the country.**

**Used research methods: Analysis and synthesis methods, statistical analysis method and comparison methods were used in the dissertation work.**

**The information base of the research: Various local and foreign literature, scientific journals, statistical reports of the “State Statistics Committee of the Republic of Azerbaijan” and reports of the “State Migration Service of the Republic of Azerbaijan” were used as information base for compiling the dissertation.**

**Restrictions of research: Restrictions on the preparation of the dissertation were the inability of libraries to operate due to the global pandemic.**

**The novelty and practical results of investigation: The study examined migration processes, the impact of relevant processes on the country's economy, social life, the current state of the labor market and other areas, and noted the author's views.**

**Scientific-practical significance of results: The results of the dissertation can be used in the scientific and practical study of migration in order to prevent the problems caused by the historical processes of migration.**

**The results of the research can be used in the teaching of specialties, which include the study of labor activity and migration processes at the same time.**

***Key words: migration, labor migration, labor market, socio-economic development***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BMqT** | Beynəlxalq Miqrasiya Təşkilatı |
| **BQXK** | Beynəlxalq Qızıl Xaç Komitəsi |
| **DMX** | Dövlət Miqrasiya Xidməti |
| **ÜDM** | Ümumdaxili məhsul |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **MSİBM** | Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |

**MÜNDƏRİCAT**

**GİRİŞ**............................................................ Ошибка! Закладка не определена.

**I FƏSİL. MİQRASİYA PROSESLƏRİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ** ......................................................................**11**

1.1. Miqrasiya proseslərinin öyrənilməsinin nəzəri əsasları.................................... 11

1.2. Miqrasiya proseslərinin öyrənilməsinin metodoloji aspektləri...........................20

1.3. Xarici təcrübənin öyrənilməsi.........................................................................27

**II FƏSİL. AZƏRBAYCANDA ƏMƏK MİQRASİYASINA DAİR MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ**.......................................................................**39**

2.1. Azərbaycanda əmək miqrasiyasının mövcud vəziyyətinin öyrənilməsi............39

2.2. Azərbaycanda əmək miqrasiyasının iqtisadi inkişafa təsirinin müqayisəli təhlili.................................................................................................................... 44

2.3. Azərbaycanda əmək miqrasiyası proseslərinin oxşar iqtisadiyyatlı ölkələrlə müqayisəli təhlili ..................................................................................................53

**III FƏSİL. ÖLKƏNİN SOSİAL İNKİŞAFINDA ƏMƏK MİQRASİYASININ ROLUNUN YÜKSƏLDİLMƏSİ YOLLARI**.........................................................**60**

3.1. Əmək miqrasiyasının tənzimlənməsi mexanizmləri ..........................................60

3.2. Əmək miqrasiyasının tənzimlənməsi institutları................................................68

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.........................................................................**...74**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**..............................................**77**

**Cədvəllərin siyahısı**.......................................................................................**80**

**Diaqramların siyahısı**.....................................................................................**80**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Əhali miqrasiya prosesləri tarixən mövcud olmuş və müasir qloballaşan zamanda daha da intensiv hal almışdır. Miqrasiya prosesləri hər bir ölkənin tarixində baş verən və daim baş verəcək hadisədir. Miqrasiya prosesləri hər bir ölkənin sosial-iqtisadi inkişafında, mühüm rol oynayır. Müxtəlif istiqamətlər üzrə iqtisadiyyata müsbət və mənfi təsirlər edir. Miqrasiya proseslərinin intensiv hal aldığı müasir zamanda heç bir dövlət düzgün tənzimlənmiş və proqnozlaşdırılmış miqrasiya siyasətini yaratmasa, davamlı və etibarlı milli təhlükəsizliyini və sosial-iqtisadi inkişafını təmin edə bilməz. Bu səbəblərdən miqrasiya prosesləri daim tədqiq olunmalı, müvafiq prosesin iqtisadi-sosial həyata təsiri məsələləri mütəmadi təhlil olunmalı və sözügedən prosesin tənzimlənməsi daim təkmilləşdirilməlidir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Müasir dövrə qədər miqrasiya prosesləri bir çox yerli və xarici müəlliflər tərəfindən tədqiq olunmuş və daim tədqiq olunmaqdadır. Miqrasiya proseslərini araşdıran yerli alimlər arasında F.Abdullayevin, M.Ə.Sərdarovun, Ş.Y.Göyçayskinin, E.R.Mehrəliyevin, H. Tahirovanın, Ş.M.Muradovun adlarını xüsusi qeyd etmək lazımdır. Adını qeyd etdiyimiz alimlər əsasən miqrasiya proseslərinin inkişaf tarixini, müvafiq proseslərin əmələ gətirdiyi problemləri, bu proseslərin ölkəyə müxtəlif istiqamətdə təsirlərini və miqrasiya proseslərinin idarə olunması və tənzimlənməsi məsələlərini araşdırmışlar.

Miqrasiya prosesləri yerli alimlərlə yanaşı xarici ölkə alimlərinində daim araşdırma obyekti olmuşdur. Sözügedən prosesləri tədqiq edən xarici alimlər sırasında N.Barinovanın, Q.Veçkanovun, C.Bhaqvatinin, İ.Malaxanın, M.Kritsin, V.Voloxun adlarını qeyd edə bilərik.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyanın məqsədi Azərbaycan Respublikasında baş verən miqrasiya proseslərini öyrənmək və bu proseslərin ölkənin sosial-iqtisadi həyatına təsirlərini təhlil etməkdir.

Qarşıya qoyulan qeyd etdiyimiz məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr icra olunmuşdur:

- Miqrasiya proseslərinin mahiyyətini, onun sosial-iqtisadi meyarlarını öyrənmək;
- Miqrasiyanın növlərini, formalarını və baş vermə istiqamətlərini araşdırmaqla ümumiləşdirmələr aparmaq;
- Əhalinin miqrasiyasına səbəb olan faktorları araşdırmaq və qiymətləndirmək;
- Miqrasiya proseslərinin ölkənin sosial-iqtisadi sferasına etdiyi müsbət və mənfi təsirləri aşkara çıxarmaq və dəyərləndirmək;
- Miqrasiya proseslərinin idarə olunmasının yerli və xarici praktikasını öyrənmək və səmərəli miqrasiya siyasətinin istiqamətlərini aşkara çıxarmaq;

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın predmeti Azərbaycanda əmək miqrasiyasının ölkənin sosial-iqtisadi inkişafına təsirinin tədqiqidir.

Tədqiqatın obyekti Azərbaycan Respublikasında miqrasiya prosesləridir.

**Tədqiqat metodları:** Dissertasiya işində miqrasiya proseslərinin baş vermə istiqamətlərini, sözügedən proseslər nəticəsində yaranan təsirlərin araşdırılması üçün təhlil və sintez metodlarından, miqrasiya proseslərinin əhali dinamikasını və iqtisadi təsirlərini daha dərindən öyrənmək üçün statistik təhlil metodundan və oxşar iqtisadiyyatlı ölkələrlə qarşılaşdırma aparmaqla müsbət və fərqli fərqləri aşkara çıxarmaq üçün müqayisə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin tərtib olunması üçün informasiya bazası olaraq müxtəlif yerli və xarici ədəbiyyatlardan, elmi jurnallardan, "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi"nin statistik hesabatlarından və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti"nin hesabatlarından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Dissertasiya işinin tərtib olunması zamanı yaranan məhdudiyyətlər dünyanı bürüyən pandemiyaya görə kitabxanaların yerində fəaliyyət göstərməməsi olmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat zamanı miqrasiya prosesləri araşdırılmış, müvafiq proseslərin ölkənin iqtisadiyyatına, sosial həyatına, əmək bazarının müasir vəziyyətinə və digər istiqamətlərə təsiri araşdırılmış və müəllif baxışları qeyd olunmuşdur.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiyanın nəticələrindən miqrasiyanın elmi və praktiki istiqamətli araşdırılmasında, miqrasiya proseslərinin tarixən yaratdığı problemlərin qabağının alınması məqsədilə istifadə edilə bilər.

Tədqiqat işinin nəticələri tədris fəaliyyətində eyni zamanda əmək fəaliyyəti və miqrasiya proseslərinin öyrənilməsini özündə ehtiva edən ixtisasların tədrisi zamanı istifadə oluna bilər.

# I FƏSİL. MİQRASİYA PROSESLƏRİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. Miqrasiya proseslərinin öyrənilməsinin nəzəri əsasları

Miqrasiyanın öyrənilməsi vacib əhəmiyyətə malikdir, çünki miqrasiya əhalinin sayını, əhalinin artım sürətini, cins , yaş və s. digər quruluşlarda yenidən bölgüsünü təyin edir. Bundan başqa , sözügən proses ölkədəki əhali bölgüsünün və işçi qüvvəsinin təmin olunmasında və ölkənin iqtisadi-sosial cəhətdən inkişafında mühüm rol oynayır.

Miqrasiya proseslərinin öyrənilməsi özündə miqrasiyanın mahiyyətinin, onun forma və növlərin kompleks araşdırılmasını ehtiva edir.

"Miqrasiya" termini (migratio) latın mənşəli olub, mənası qısa və ya uzun müddət ərzində "bir yerdən digər yerə köç etmək, hərəkət etmək, yerini dəyişmək" kimi ifadə olunur. Başqa sözlə desək o, insanların daimi yaşayış yerlərini birdəfəlik tərk etməsi və ya müvəqqəti dəyişməsi prosesidir.

Aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, miqrasiya anlayışının elmi izahını ilk dəfə XIX əsrdə qərb alimi E.Ravenşteyn vermiş və onu "insanların öz yaşayış yerini daimi və ya müvəqqəti dəyişməsi" olaraq şərh etmişdir (Ravenstein E.G., 1876).

"Miqrasiya" sözünün mənası ingilis dilindəki "miqrate" – "səyahət etmək, piyada gəzmək" feli ilə də üst-üstə düşür. Bir çox ədəbiyyatlarda miqrasiya geniş və dar formalardan şərh olunur. Dar formada miqrasiya yaşayış yerini dəyişmək, "köçüb getmək" kimi şərh olunur, geniş formada isə səbəb, məqsəd, vaxt, mənbə və göstəricilərdən asılı olaraq , ölkədaxili və ölkəxarici əhali hərəkəti kimi ifadə edir.

"Əhalinin miqrasiyası" anlayışını şərh edən digər tədqiqatçıları üç qrupa bölmək olar. Birinci qrupun nümayəndələri V.A.Suxov və N.N.Filippovun şərhinə görə, əhalinin miqrasiyası prosesi insanların ölkə daxilində yerdəyişməsi kimi başa

düşülür. Geniş mənada o, əhalinin ərazi, təsərrüfat sahələri, ixtisas və sosial istiqamətlər üzrə bölüşdürülməsi deməkdir (Филиппов Н.Н., Сухов В.А., 1972).

İkinci qrupu təmsil edən B.D.Breyev və E.F.Baranov qeyd edirlər ki , əhalinin miqrasiyası anlayışı əhatəli şəkildə əmək fəaliyyətinin növünün və məkanının, əmək sahəsinin dəyişilməsi səbəbi ilə insanların yaşadıqları məkandan digər məkana köç etməsi kimi başa düşülməlidir (Баранов Э.Ф., Бреев Б.Д., 1967).

Üçüncü qrupun tərəfdarı Y.N.Kozirevə görə miqrasiya əhalinin məişət və ticarətlə əlaqəli olaraq xidmət sahələrində işləmək səbəbi ilə yeni yaşayış yerlərində məskunlaşmasını və ya emiqrasiya olunmaqla yaşayış məkanını dəyişməsini prosesidir. B.S.Xorevin fikrinə əsasən, insanların bir ərazidən digərinə köçməsi hallarının araşdırılması yeni metodlar vasitəsi ilə olmalıdır, çünki yerdəyişmələrin oxşar cəhətləri çoxdur (Хорев Б.С., 1974)

Birləşmiş Millətlər Təşkilatının demoqrafik lüğətinə görə “Miqrasiya elə bir hadisədir ki, insanlar bir coğrafi ərazidən digər coğrafi əraziyə köçürlər. Yaşadıqları yerdən çıxan insanlar başqa bir ərazidə daimi yaşamağa gedəndə buna köç deyilir”.

Miqrasiya anlayışının təhlilində bir neçə mühüm anlayışlar mövcuddur. Bunlara immiqrasiya, emiqrasiya, miqrasiya saldosu, “beyin axını” və miqrantların fərqli kateqoriyaları aiddir . İmmiqrasiya - xarici vətəndaşların ölkəyə qısa, uzun və ya daimi yaşayış məqsədi ilə gəlməsi prosesidir. Emiqrasiya isə əksinə ölkədən digər xaricə ölkələrə əhali axınıdır. Proses iştirakçıları müvafiq olaraq immiqrant və emmiqrant statusununa sahib olurlar. Hər iki kateqoriya iştirakçıları könüllü və ya məcburi şəkildə müvafiq prosesdə iştirak edirlər. Hər bir ölkənin immiqrasiya göstəriciləri ilə emiqrasiya göstəricilərinin fərqi, miqrasiya saldosunu yaradır. “Beyin axını” - yüksək ixtisaslı əmək ehtiyatlarının , kadrların emiqrasiyası deməkdir.

Prof. Ş.Muradov əhalinin miqrasiyasını geniş mənada şərh etdikdə, əhalinin müxtəlif formalarda ərazilər üzrə kütləvi məskunlaşması, yerdəyişməsini, dar mənada

isə, müvafiq prosesin müəyyən bir vaxt ərzində yaşayış məkanını dəyişməsi kimi qeyd edir (Muradov Ş.M., 2004).

Miqrasiya əhali dəyişikliklərin doğum və ölüm nisbətindən sonra üçüncü amilidir. Miqrasiya əhalinin sayına doğum və ölüm fərqi ilə müqayisədə fərqli təsir göstərir. Miqrasiya doğum və ölüm kimi bioloji bir hadisə deyil, iqtisadi ,mədəni sosial və siyasi amillərdən təsirlənir. Miqrasiya bir şəxsin və ya bir qrup şəxsin qərarı ilə baş verir. Doğum və ölüm səbəbindən baş verən dəyişikliklər əhalinin quruluşuna və sayına geniş miqyasda təsir göstərmir, bundan fərqli olaraq miqrasiya hər an əhalinin sayında və quruluşunda əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər.

Keçmiş zamanda insanların yaşayış məkanının dəyişməsinə səbəb olaraq istehsal, əmək bölgüsü və istehlak kimi amillər göstərilmişdir. Digər araşdırmalara əsasəsən yaxın keçmişdə insanların köç etməsinə zəmin yaradan amillər sırasına işğalları, zor tətbiqini, müharibələri, dini, irqi və digər siyasi təzyiqləri aid etmək olar. Başqa sözlə deyə bilərik ki, bəşər tariximiz "böyük insan köçü" formasında qeyd olunan hadisələrlə doludur (https://www.sociologydiscussion.com/communication/migration/migration-meaning-types-and-effects/3112 ).

Miqrasiya prosesinin baş verməsi özündə bir neçə mərhələni ehtiva edir. Bunlar aşağıdakılardır :

- Doğma ölkəsini tərk etməyi qərara almaq və bunun üçün lazımi tədbirləri görməyi nəzərdə tutan mərhələ: Bu mərhələdə fərd özünün, lazımi sənədləşmə prosedurlarını aparır, şəxsi və digər məsələlərini icra edir. Bundan başqa şəxs, getməyi planlaşdırdığı ölkə haqqında məlumatlar toplayır eyni zamanda həmin ölkənin qanunvericiliyi ilə yaxından tanış olur.

-Doğma ölkəsindən başqa ölkəyə getmək üçün dövlət sərhədlərini keçməsini gərəkdirən mərhələ: Bu mərhələyə ölkə sərhədlərini keçmək eyni zamanda digər ölkəyə girmək üçün lazımi sənədlərin alınması və sözügedən prosesin həyata keçməsi daxildir.

-Təyinat ölkəsinə daxil olduqdan  sonra yerli vəziyyətə uyğunlaşma prosesini ehtiva edən mərhələ: Bu mərhələdə fərd gəldiyi ölkədə qanuni yaşamasını rəsmiləşdirmək həm də yaşamaq üçün yaxşı şərait əldə etmək səbəbi ilə  lazımi tədbirlər görür.

Müasir zamanda sosial –iqtisadi inkişafın əsas göstəricisi kimi bir çox ölkələr beynəlxalq əmək miqrasiyasında iştirak edirlər ki, bu prosesdə  çevik əmək bazarının yaranmasına təkan verir. Miqrasiya prosesləri bir çox vacib prosesləri tənzimləmək və təkmilləşdirmək yolu ilə cəmiyyətin inkişafında əvəzsiz rol oynayır. Beləliklə miqrasiya prosesləri araşdırılarkən qeyd olunan bəzi məsələlər nəzərə alınır: miqrantlar, miqrasiya prosesinin  nəticələri, miqrasiya proseslərinin  ictimai həyatın sferalarına təsir istiqamətləri və s. Bu məsələlər təhlil olunarkən isə  miqrasiyanın təsnifat formalarının fərqləndirilməsinə ehtiyac yaranır.

Miqrasiyası formalarının təsnifat üzrə bölgüsü onların fərqli xüsusiyyətlərini göstərməklə yanaşı, eyni zamanda  onların  aralarındakı ümumi xüsusiyyətlərini müəyyən etmək və əlaqələri öyrənmək üçün vacibdir. Miqrasiya formalarının bölgüsünü bir çox xüsusiyyətlərinə görə aparmaq olar. Lakin giriş olaraq bu təsnifatın əsasını insanların  köçməsi səbəblərini nəzərə almaqla , onları iki əsas qrupa ayirmaq olar :

- istehsal - istehsalla əlaqəli  miqrasiyanın formalarını dərindən  təhlil etsək görərik ki , onlar da öz növbəsində sənaye  və kənd təsərrüfatı ilə bağlıdır.
- qeyri istehsal - əhalinin istirahət, təhsil, xidmət, istehlak , və digər mənəvi ehtiyacları ilə bağlıdır. (Abdullayev F., 2009)

Miqrasiya formalarını digər parametrlərə görə daha dərindən təsnifləşdirək. Miqrasiya prosesi zamanı dövlət sərhədlərinin keçilməsinə əsasən iki tipi ayrılır:

- Daxili miqrasiya - ölkə ərazisində bir yaşayış məntəqəsindən digərinə, ölkə hüdudlarə çərçivəsində bir kənddən başqa bir kəndə ,kənddən şəhərə, şəhərdən kəndə və yaxud şəhərlərarası  hərəkət prosesi daxili miqrasiya adlanır. Daxili miqrasiya

dövlət sərhədləri keçilmədən baş verən insan köçüdür. Daxili miqrantlar ölkə çərçivəsi daxilində hərəkət edirlər.

Bundan başqa sözügedən miqrasiya formasınında bir neçə növləri fərqləndirilir: kəndlərarası , şəhərlərarası, kənddən şəhərə və şəhərdən kəndə.

Klassik yanaşmaya əsasən, daxili yerdəyişmə prosesləri təhlil edilərkən "miqrasiya" anlayışından istifadə olunmurdu, bu anlayış dövlət sərhədlərini keçmək yolu ilə həyata keçən yerdəyişmə proseslərinə aid edilirdi. Ötən əsrin 80-ci illərindən bu termin əhatəli şəkildə daxili yerdəyişmə proseslərində dəyərləndirilməyə başladı. Yaxın keçmişdə əhalinin daxili köçünə bu formada yanaşılmasına səbəblər var idi. Belə ki, insanlar ölkə hüdudları çərçivəsində hərəkət edərkən miqrasiyanın üç mərhələsi ilə və miqrasiya proseslərinə xas olan bir çox məsələlərlə qarşılaşmırlar.

- Xarici miqrasiya - bir ölkə ərazisindən digər bir ölkənin ərazisinə keçilməsi yolu ilə baş verən əhali hərəkətidir. Xarici miqrasiyanın baş verməsinin əsas şərti dövlət sərhədlərinin keçilməsidir. (Sərdarov M., 2004)

Miqrasiyanın başqa forma meyarı zaman müddəti hesab edilir. Zaman müddətinə görə miqrasiyanın formaları bunlardır:

daimi;

mövsümi;

müvəqqəti;

mütərəddid.

Daimi, geri qayıtmağı planlaşdırmayan miqrasiya iki şərtlə ehtiva olunur : ilk öncə , insanlar bir yaşayış unvanından digərinə köç edir , daha sonra yerdəyişmə prosesi əvvəlki yaşayış məkanının birdəfəlik tərk edilməsi ilə sonlanır. Bu proses həm daxili istiqamətli , həm də xarici miqrasiyaya xas ola bilər. Daimi baş verən yerdəyişməni tədqiqatçılar miqrasiyanın ciddi fenomeni , bir dəfəlik həyata keçən hadisə kimi dəyərləndirirlər . Başqa sözlə desək miqrasiya anlayışının mənasını ən düzgün şəkildə əks etdirən forma kimi hesab edirlər. Daimi miqrasiya təkcə forma əlamətinə görə deyil , eyni zamanda mahiyyətinə görə də fərqlənir . Bu cür miqrasiya

digərlərindən fərqli şəkildə əhalinin tərkibinin dəyişməsində və formalaşmasında əvəzsiz mənbə rolu oynayır. Təbii haldır ki , miqrasiyanın bu növü ilə başqa növləri arasında keçilməz sədlər yoxdur. Miqrasiyanın formaları, növləri və tipləri bir - biri ilə əlaqəlidir və biri digər birinə keçə bilər. Məsələn , mövsümi , epizodik və müvəqqəti miqrasiyalar daimi miqrasiyaya çevrilə bilər . İnsanların onları maraqlandıran məlumatı əldə etməsindən sonra seçim etməsinə zəmin yarada bilər.

Müvəqqəti miqrasiya , əsas etibari ilə əmək qabiliyyətli insanların qısa zaman kəsiyində və ya nisbətən daha uzun müddətə miqrasiya etməsidir. Lakin burada əsas şərt əvvəlcədən planlaşdırılmış vaxt ilə təhsil , iş turizm və s . səbəblərdən hərəkətini ifadə edir. İşçi qüvvəsinin bir məkandan digərinə müqavilə yolu ilə ,nəzərdə tutulmuş müddətə getməsi də buraya aiddir.

Mövsümi miqrasiya insanların daimi yaşayış unvanının saxlanılması yolu ilə istehsal fəaliyyətinin mövsümi xarakter aldığı sahalərə hərəkətini əks etdirir. Miqrasiyanın mövsümi forması həyat səviyyəsinin artırılmasına kömək olmaqla bərabər eyni zamanda işçi qüvvəsinə olan tələbatın ödəməsinədə şərait yaradır. Yerli əmək resursların kifayət etmədiyi vəziyyətdə əlavə resuslara ehtiyac yaranır və bu zaman mövsümi miqrasiya əmək bazarında gərginlik yaratmadan həmin ehtiyacı ödəyir (http://web2.anl.az:81/read/page.php?bibid=85544&pno=18).

Epizodik miqrasiya iştirakçı sayına və miqyasına görə digər miqrasiya növlərini ötüb keçir. Bu miqrasiya növü məqsəd və müddətinə görə mövsümi formadan fərqlənir. Belə ki müntəzəm baş verən epizodik miqrasiya işgüzar və rekreasion səfərləri əhatə edir.İşgüzar səfərlərdə adətən əmək qabiliyyətli əhalinin fəal iştirakı nəzərə çarpırsa, rekreasion (istirahət ) səfərlərdə yerdə qalan əhali daha fəal iştirak edir. Epizodik miqrasiyalarda fəal olan əhalinin tərkibi çox çalarlı olur. Miqyasca böyük növ olmasına baxmayaraq bu miqrasiya növü daha zəif inkişafı ilə seçilir. İstisna kimi yalnız turizm sahəsi geniş təhlil edilir.

Miqrasiya fəaliyyətinin qanun çərçivəsində baş verib-verməməsinə görə miqrasiyanın iki forması vardır:

- Qanuni miqrasiya- hər bir ölkənin qanunları çərçivəsində həyata keçən, qanunauyğun şəkildə həyata keçirilən, qanunla qadağan olunmayan miqrasiyadır.
- Qeyri-qanuni miqrasiya – mənşə, təyinat və tranzit ölkələrin qanunvericiliyinə zidd şəkildə həyata keçən miqrasiyadır. Mənşə ölkəsi baxımından qeyri-qanuni miqrasiya passport və ya başqa yol sənədi olmadan yaxud saxta sənədlərlə və ya ölkə sərhədlərinin keçilməsi qaydalarını pozaraq ölkəni tərk etməsidir.Təyinat ölkəsi baxımından qeyri-qanuni miqrasiya fərdin immiqrasiya qanunvericiliyinə əsasən ölkəyə girmək, orada yaşamaq və ya işləmək üçün lazımi sənədləri və ya icazəsi olmuyaraq, ölkəyə qeyri-leqal yolla daxil olması, orada yaşaması və ya əmək fəaliyyəti ilə məşğul olmasıdır (https://www.migration.gv.at/en/types-of-immigration/ ) .

Miqrasiya formasının digər bölgüsündə mənşə ölkəsində yaşama zamanından yaxud xarakterindən asılı olaraq iki növü fərqləndirilir:

- Qayıdışlı miqrasiya - bu miqrasiya forması müəyyən səbəblərlə başqa ölkədə yaşadıqdan sonra fərdin doğma vətəninə qayıtmasını şərtləndirir. Başqa sözlə desək , fərd ən azı bir il zaman kəsiyində digər ölkədə yaşadıqdan sonra öz ölkəsinə yaxud daimi yaşayış məskəninə geri dönməsi miqrasiyanın qayıdışlı formasını alır.
- Qayıdışsız miqrasiya - fərdin yaşadığı ölkəsindən bir ildən artıq müddətə çıxması deməkdir. Belə miqrasiyanı birdəfəlik miqrasiya kimi də adlandırmaq olar. Birdəfəlik miqrasiya vaxtda iki elementə sahibdir: insanlar bir yaşayış məkanından digərinə köç edir və bu köçetmə daimi yaşayış məkanının dəyişməsi ilə baş verir. Qayıdışsız miqrasiya miqrasiyanın başqa növlərindən fərqli olaraq, insanların köç etdiyi ölkədə əhalinin formalaşmasında əsas mənbə kimi çıxış edir.

Müxtəlif regionlar , məkanlar arasında baş verən miqrasiya prosesləri bəzi ədəbiyyatlarda şaquli və üfüqi kimi də qruplaşdırılır. Yaşayış məntəqələri müxtəlif nüfuza , miqyas, aşağı və yuxarı statusa sahibdir. İri sənayə mərkəzləri, paytaxt sayılan böyük şəhərlər və eyni zamanda az sayda insan yaşayan şəhərlər də vardır . Bu yanaşmaya əsasən statusu eyni olan ərazilər arası əhali hərəkəti üfüqi , insanların

yaşayış səviyyəsinin yüksək olduğu böyük şəhərlərə, iri mərkəzlərə köçü isə şaquli miqrasiyaya aiddir. (Sərdarov M., 2004)

Miqrasiyanın yaranma səbəbləri yaşanılan dövrün xüsusiyyətlərinə əsasən şərtlənir. Tarixin ən qədim dövrlərində insanların axınları , yeni məskənlərə hərəkəti dinc xarakterli yaşanmışdır. Əmək bölgüsünün inkişafı, müxtəlif təbəqələşmə proseslərindən sonra , Avropada insanların etnik tərkibinin deformasiyasını yaradan böyük insan köçü miqrasiya proseslərinin çoxlu səbəblərini əmələ gətirdi.

Miqrasiyanın baş vermə səbəbi təsnifat meyarı fomasında olarsa bu növləri qeyd etməliyik : sosial - həyat səviyyəsini dəyişmək, daha yaxşı yaşamaq ; iqtisadi - daha gəlirli iş əldə etmək; siyasi- dini ,irqi və etnik basqılar və təzyiqlər; hərbi - deportasiya və s.

Qeyd etdiyimiz kimi miqrasiya prosesinə təbii – coğrafi, iqtisadi,siyasi və s. amillər təsir göstərir . Bütün bu amillər insanların miqrasiyası prosesinə yaşayış səviyyəsi vasitəsilə təsir edir. Yaşayış səviyyəsinə birbaşa və ya dolayı təsir edən amillər isə aşağıdakılardan ibarətdir: (Göyçayski Ş., 1979)

1)İqtisadi amillərə əsasən : əmək haqqının səviyyəsi, insanlarən əmək və yaşam şəraiti, istehlak məhsullarının və xidmətlərin dəyəri və qiyməti , istehsal mexanizmlərinin avtomatlaşdırılması səviyyəsi, həyatyanı və ya fərdi sahədən daxil olan gəlirlərin miqdarı , sahibkarlıq fəaliyyətindən və ictimai istehsaldan gələn gəlirlərin qədəri, yaşayış üçün vasitələrinin yeni forması , istehsalın zaman və keyfiyyət dərəcəsi, istehlak mallarının keyfiyyəti və s. daxildir.

2) Coğrafi şərait və təbii amillərə əsasən :əlverişli iqlim, münbit landşaft və elastik görünüş, yaşayış məskəninin, rayonun, kəndin mənimsənilməsi və insanların yerli tərzə uyğunlaşması, iri sənaye mərkəzlərinə və böyük şəhərlərə yaxın olması, nəqliyyat-kommunikasiya şəbəkəsinin inkişafı dərəcəsi və onların ilin bütün fəsillərində əlverişliliyi təmin etməsi və s. aiddir.

3)Demoqrafik amillərə : əhalinin doğum , ölüm və təbii artım kimi təbii hərəkəti və əhalinin tərkibi – cinsi, yaşı və digər xüsusiyyətləri aiddir .

4)Əhalinin etnik xüsusiyyətlərinə: hər bir xalqın , millətin tarixən miqrasiya meyli, milli assimilyasiya səviyyəsi, millətlərarası kommunikasiyanın inkişaf xüsusiyyətləri, başqa millətlərin dillərini öyrənmək bacarığı və əsasən xeyli sayda xalqların ümumi dilində danışmaq və s. daxildir .

5)Məskunlaşma xarakteriktikasına: insanların sıx və ya seyrək məskunlaşması ,yaşayış məntəqələrinin inkişafı dərəcəsi , yaşayış məntəqələrinin ölçüsü və s. amillər aiddir.

6) Xidmət səviyyəsi və mədəni - məişət şəraitinə: yaşayış yerlərinin abadlığı , yaşayış binalarının keyfiyyəti və həcmi, körpə və uşaqlara xidmət səviyyəsinin yuxarı olması, tibbi xidmətin yüksək səviyyəsi, ticarət, alqı-satqı xidmətinin səviyyəsi və kommunal xidmətlərin keyfiyyəti aiddir.

7) Həyat tərzinə: iş rejimi və asudə vaxtın miqdarı, ixtisas, peşə üzrə yüksəlmək fürsətləri, ailə qurmaq imkanları, sosial əlaqələrin aktivliyi, dünya görüşünün artırılması imkanları, insanların iş mühitində və ailədəki sosioloji şəraiti və s . daxildir.

İnsanın doğma yaşayış məkanını azad seçimi, istəyi ilə yaxud zorakılıq səbəbindən dəyişməsini fərqləndirmək üçün könüllü və məcburi miqrasiya formaları fərqləndirilir .

Miqrasiyanın məcburi növünə aid olan kateqoriyalar arasında fərqlər az olsa da , bəzi xüsusiyyətləri fərqləndirmək mümkündür. Məcburi miqrantlar öz yaşayış yerini qəfil vaxtda, şəxsin və ailəsinin həyatı üçün təhlükəli olan şəraitdə tərk etmək məcburiyyətində olurlar. Bundan əlavə bu cür yerdəyişmə insanın həyatı üçün, maddi yaşayışı üçün əvəzsiz vasitələrin istismarı yolu ilə baş verir. Könüllü miqrasiya edənlər isə fərqli olaraq başqa yerə köç etməsi qərarını uzun müddət planlaşdırmaq və seçim etmək üçün xeyli vaxta sahibdirlər. Hətta bəzi vaxtlarda əmək miqrasiyası prosesində dövlətin dəstəyindən də yararlana bilirlər. Ən əsası isə, könüllü miqrasiya edənlərin öz yaşayış səviyyəsini yaxşılaşdırmaq fürsətləri vardır.

Qaçqın və məcburi köçkünlər isə yaşayış yerini qəfil tərk edir və hara gedəcəyini bilmirlər (Əliyev Ə., 2007).

## 1.2.Miqrasiya proseslərinin öyrənilməsinin metodoloji aspektləri

Miqrasiya proseslərinin daha dərindən öyrənilməsi müəyyən metodologiyanın hazırlanmasını zəruri edir. Əhali miqrasiya proseslərinin özünəməxsus vəziyyəti bu proseslərin tədqiqinin xüsusi istiqamətlərini ortaya qoyur. Əhali Miqrasiya proseslərinin əhatəli tərkibi və bu tərkibi təşkil edən komponentlərin çox sayda kəmiyyətlər daxilində dəyişməsi bu prosesi tədqiq edən elmlərin də çox sayda olmasına zəmin yaratmışdır. Miqrasiya proseslərində iştirak edən hər bir şəxsin hüquqları digər vətəndaşlar kimi insan hüquqlarının tərkib hissəsidir. İnsanların maraq dairəsində olan hadisələr və iştirak etdiyi müxtəlif sahələr eyni zamanda miqrantların da maraq sahələri daxilindədir. Miqrant hüquqları və onların fəaliyyəti bu səbəbdən ümuminsan hüquqlarının və onların fəaliyyətinin tərkibini təşkil edir. İnsanların iqtisadi, sosial, siyasi, ekoloji, vəziyyətini, yaşayış səviyyəsini və fəaliyyətlərini müxtəlif istiqamətlərdən öyrənən elmlər, həmdə miqrasiya proseslərini öyrənir.

Əhali miqrasiya prosesləri əsasən məkan cəhətdən öyrənilir, eyni zamanda forma və məzmun cəhətdən tədqiq edilir. Miqrasiya proseslərinin tədqiq olunmasının obyekti olaraq miqrantlar, eyni zamanda onlarla yerli vətəndaşlar arasında baş verən münasibətlərinin iqtisadi, sosial, dini və digər istiqamətləri əsaslı rol oynayır.

Əhali miqrasiya prosesləri obyekt formasında dövlətlərin beynəlxalq münasibətlərini eyni zamanda daxili və xarici siyasətini tədqiq edən elm sahələrinin predmetlərinin tərkib hissəsidir. Əlavə olaraq fərqli yanaşmalar və fərqli elmlərin miqrasiya proseslərini öyrənmə istiqamətinin olması zəmin yaratmışdır ki, bu sahəni tədqiq edən ayrıca elmi fənn, yəni miqrasiologiya elmi yaranmışdır. Miqrasiologiya elminin metodologiyası ümumi formada bir çox elmlərin metodologiyasının məzmununu əhatə edir. Miqrasiologiya elminin metodologiyası universal elmi

metodologiyanın daxili ünsürü olmaqla, eyni zamanda fənlərarası metodlar şəklində xususi metodların umumi cəmini əhatə edir. Miqrasiya prosesləri bir predmet olaraq sosiologiyanın, psixologiyanın, politologiyanın, coğrafiya elminin və əsas hallarda iqtisadiyyat və hüquqşünaslıq elmlərinin obyektidir. Bu səbəbdən miqrasiologiya eyni zamanda fənlərarası formada predmet olaraq məna kəsb edir. Əhali miqrasiyanı yaradan səbəblər və onun yaratdığı nəticələr, miqrasiya proseslərinin nəticə yaratdığı şəraitlərin əsasları xüsusi elmlər tərəfindən öyrənilir və tədqiq olunur. Bu elmlər təsnifat formasına görə, miqrasiya proseslərini əhatə etmək cəhətdən, əsas və köməkçi olaraq, iki qrupa ayırmaq olar. Bu qruplar cəm formada miqrasiologiya fənnini ərsəyə gətirir. Miqrasiya istiqamətində ümumi elm sahələrinin predmetləri yaranır, həm də xüsusi elm sahələrinin predmetləri köməkçi rolda çıxış edir (Muradov Ş.M., 2004).

Siyasət elminin tədqiqat obyekti kimi miqrasiya – Hər bir insanların, cəm formada toplumun, sinifin həm də müxtəlif cəmiyyətlərin maraqlarının təşkil edilməsi məqsədi ilə dövlətin vacib marağındadır. Dövlətlər fərdi şəxslərin və cəmiyyətin maraqlarını hüquqi tənzimləmə metodu ilə təşkil edirlər. Dövlət üçün bu zaman fərd həm şəxs həmdə vətəndaş statusuna sahib olur. Miqrasiya proseslərinin tənzimlənməsi dövlətlərin daxili və xarici siyasətinin mühüm tərkib hissəsidir. Dövlətlərin idarəetmə funksiyasında bu istiqamətlər əsas rol oynayır. Hər bir dövlət miqrasiya sahəsinin tənzimlənməsi üçün qanunvericiliyin yaradılması, onun icra edilməsi və hüquqi müdafiənisi birləşdirən siyasətləçıxış edir. Dövlətlər eyni zamanda ölkəyə gələnlərin təhlükəsizliyini təşkil edən siyasəti də həyata keçirir. Miqrasiya siyasətini icra etmək üçün hər bir dövlət fərqli mexanizmlərdən, vasitələrdən və qanunvericiliklə müəyyən olunan tənzimləmə vasitələrdən istifadə edir. Miqrasiya siyasətinin idarə olunmasında hər bir dövlət miqrasiyanın statistik göstəricilərindən və onun yaratdığı səbəblərinə uyğun olaraq davranır. Bütün dövlətlərin miqrantlara mühüm ehtiyacı vardır. Dövlətlər əmək bazarında yaranan işçi tələbatlarını yerli vətəndaşlarla yanaşı, eyni zamanda xarici miqrantların

sayəsində ödəyirlər. Hər bir dövlətin beynəlxalq mövqeyinin güclənməsində miqrasiya siyasəti əvəzsiz rol oynayır.

Miqrasiya prosesləri eyni zamanda sosial məzmunlu bir prosesdir həm də dövlət siyasətinin mühüm obyektlərindən biridir eyni zamanda həm dövlətlərarası həm də dövlətdaxili siyasətin və münasibətlərin tədqiq obyektidir. Bu formada deyə bilərik ki, miqrasiya prosesləri yuxarı mərhələdə siyasi mahiyyətli, aşağı mərhələdə isə sosial mahiyyətlidir. Yekunda isə vətandaş və miqrant hüquqlarını tənzimləyən kriteriyaları özündə cəmləşdirən prosesdir. Miqrasiya hüquq və qanunvericiliyin tədqiq obyekti kimi çıxış etdiyindən, eyni zamanda vətandaş , miqrant və dövlət hüquqlarını özündə birləşdirdiyindən bu sahənin tənzimlənməsi dövlət siyasətinin əsas istiqamətləri olur. Əhali miqrasiyası dövlətin sosial, iqtisadi və demoqrafik istiaqamətlərdə tənzimləmə siyasətinin tərkib hissələrini özündə birləşdirən bir proses olaraq əhəmiyyət kəsb edir. Əlavə olaraq miqrasiya prosesləri vətəndaşların və qeyri-vətəndaşların və hüquqlarını daşıyan həm də ümum insan hüquqlarına xidmət edərək fərqli çalar və mahiyyətə malikdir (Mehrəliyev E., 1991).

Miqrasiya prosesləri o səbəbdən dövlət siyasətinin obyektidir ki, digər ölkə vətəndaşlarının eyni zamanda vətəndaşlığı olmayan fərdlərin və xaricə köç edən ölkə vətəndaşlarının sosial və digər məsələləri tənzim və idarə edilir. Miqrasiya ölkələrin xarici siyasətinin idarə olunması vacibliyi ilə üst-üstə düşür. Miqrasiya proseslərinin olması səbəbləri indiki qloballaşan mərhələdə ölkə resurslarının, əsasən maddi resurların və təbii ehtiyatların bərabər olmayan formada paylanılması ilə əlaqəlidir. Əhali miqrasiya siyasəti bu səbəbdən dövlətin xarici siyasətinin predmeti olaraq qeyd olunur. Sənaye resurslarının, maddi ehtiyatlarının və kənd təsərrüfatı mallarının qeyri-bərabər şaxələnməsi də miqrasiyanın baş verməsini gərəkdirən əsas amilərdir.

Sosiologiyanın elminin tədqiqat obyekti kimi – miqrasiya prosesləri cəmiyyətdə baş verən proseslərə nüfuz etdiyindən və cəmiyyətin sosial həyat strukturuna təsir etdiyindən, bu istiqamətin tədqiq edilməsi sosiologiya elminin də vəzifələ və məqsədlərindən hesab olunur. Dövlət miqrasiyanı siyasi və sosial bir

problem olaraq görür , daxili və xarici siyasətində bu vəhdəti formalaşdırır. Dövlətlərin miqrasiya proseslərini tənzimlənməsi istiqamətlərindən biri də əmək fəaliyyəti sahəsində ölkə vətəndaşların hüquqlarını təmsil və mudafiə etməkdir. Daxili əmək bazarında gərginliyin baş verməməsi üçün bir çox dövlətlər əmək kvotasını yaradır. Bu səbəbdən Azərbaycan qanunvericiliyində qeyd olunur ki, kvota daxili əmək resuslarından səmərəli istifadə edilməsi həm də əhalinin əmək miqrasiyasının tənizmlənməsi istiqamətində işlərin keyfiyyətinin artırılması məqsədilə yaradılır. Əmək kvotası əmək bazarının vəziyyəti, əmək bazarında işçi resuslarına tələbat, iş sahələrinin şərtlərinə cavab verən ixtisasa malik ölkə vətəndaşlarının iddia etmədiyi vakant iş sahələrinin mövcudluğu və eyni zamanda məşğulluq xidmətinin iş yerlərinin işçi qüvvəsinə olan təbəbatını yerli əmək qüvvəsi ilə təmin edə bilmək imkanları təhlil edilməklə müəyyən edilir (Muradov R.Ş., 2000).

Miqrasiya proseslərinin tədqiq olunmasında yanaşma istiqamətlərindən biri də ölkəyə gəlmiş xarici şəxslərin yerli şəraitə və vəziyyətə adaptasiya olunmasının dərəcəsini öyrənməkdən ibarətdir. Eyni zamanda, dövlət və miqrasiya tənzimləmə təşkilatları miqrasiyanın tərkib hissəsi olan adaptasiya( uyğunlaşma) siyasətini icra edirlər. Burada əsas məqsəd ölkəyə gələn xarici vətəndaşların yerli cəmiyyətlərə adaptasiyasını təşkil etməkdir. Adaptasiya məsələlərinin lazımi dərəcədə tənzimlənməməsi bəzi ölkələrdə ölkə vətəndaşları ilə birçox problemlərin yaranmasına gətirib çıxarır.

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti" öz səlahiyyətləri çərçivəsində ölkəyə gələn şəxslərin sosial və digər müdafiəsi üçün gərəkli şərait yaratmaq, və miqrantların yerli şəraitə adaptasiyası üçün lazımi tədbirlər görmək həm də miqrantların hüquqlarını müdafiə etmək funksiyasına malikdir (https://migration.gov.az/az/about/54 )

Miqrantların ölkələrdə ictimai tərəfdən təşkilatlanması onların sosial uyğunlaşmasının tərkib hissəsi kimi qeyd olunmalıdır. İcmaların, mədəniyyət

ocaqlarının, ictimai qrupların yaradılması və təşkil edilməsi təbii ki, ölkə vətəndaşları ilə ünsiyyətin və əlaqələrin yaxşılaşmasına səbəb olur.

Sosial istiqamət baxımından miqrasiya proseslərinin aşağıdakı istiqamətlərini qeyd edə bilərik :

– miqrasiya proseslərinin həyata keçməsinin sosial istiqamətləri;
– miqrasiya prosesləri səbəbindən yaranan sosial nəticələri;
– miqrantların sosial müdafiəsi və sosial təminat məsələləri;
– miqrantların sosial sığorta problemləri;
– əmək münasibətlərinin tənzimlənməsi məsələləri;
– miqrantların və vətəndaşların iş yerləri ilə təmin olunması;
– əmək haqlarının gecikdirilmədən, qanunvericiliyin tələblərinə və beynəlxalq hüquqa əsasən müvafiq qaydada verilməsini təşkil etmək;
–əmək miqrantlarınının əmək şəraitini standartlara uyğun şəkildə təmin etmək;
– istehsal və xidmətin sahələrinin lazımi əmək şəraitinin təşkil olunması;
– miqrantların yaşayış yerlərinin rahat əldə olunması üçün lazımi şəraitin formalşdırılması;
– əmək fəaliyyəti zamanı yaranan xəsarətlərə və xəstəliklərə görə yardım;
– əmək kvotalarının tərtib olunması;
– əmək və digər məzuniyyətlərin qanunvericiliyə uyğun verilməsi;
– təhlükəsiz iş mühitinin yaradılması və əməyin mühafizəsi;
– sosial adaptasiya və sosial gərginliklərin baş verməsinin qarşısının alınması;
– sosial və hüquqi maarifləndirmə və təlimatlandırma;
– digər sosial istiqamətlər.

İqtisadiyyat elminin tədqiqat obyekti kimi - miqrasiya prosesləri iqtisadiyyatın strukturunu təşkil edən komponentlərindən biri kimi, ümumi əsaslarla iqtisadiyyat strukturlarına, iqtisadiyyatın bir çox sahələrinə və mexanizmlərinə təsir edir. Bu səbəbdən də iqtisadiyyat elminin tədqiqat obyektinə və öyrənmə predmentinə çevrilir.

Miqrasiyanı iqtisadiyyatın tədqiqat obyekti olmasını aşağıdakı əsaslarla əlaqələndirmək olar :

–iqtisadiyyatın bir çox sahələrində miqrasiya proseslərindən gələn gəlirin həcmi baxımından;

– vergi daxilolmaları hesabına yaranan gəlirləri;

– bank əməliyyatlarından yaranan gəlirləri;

– dövlət rüsumları hesabına daxil olan gəlirləri;

– xidmət və digər xərclərdən gəlirləri;

– miqrantların daxili bazarlarda kapital qoyuluşları və bəzi xərcləri;

Beynəlxalq iqtisadi əlaqələr istiqamətində :

– gömrük rüsumlarından daxil olan gəlirlər;

– ticarət əməliyyatları hesabına daxil olan gəlirlər;

– beynəlxalq bank əməliyyatlar hesabına yaranan gəlirlər;

– turizm fəaliyyətindən daxil olan gəlirlər;

– miqrasiya proseslərinin iqtisadiyyatın sahələrinə başqa müsbət və mənfi təsirlərinin öyrənilməsi və s.

Müasir şəraitdə fərqli elmi istiqamətlərin tədqiqatçılarının bir çoxu tərəfindən ölkə iqtisadiyyatları inkişaf etməsində əhali miqrasiya proseslərinin rolunun çoxaldığı qeyd olunsa da, mövcud proseslərlə əlaqəli deyilən şərhlər ziddiyyət təşkil edir. Bu da öz növbəsində, miqrasiya proseslərinin səmərəliliyinin müəyyən olunması zamanı yaranan bir çox problemləri yetərli formada həll etməyə imkan yaratmır. Başqa sözlə desək, çox sayda miqrant qəbul edən ölkələrdə aparılmış bir çox tədqiqatlar çərçivəsində əmək miqrasiyası səbəbindən yaranan itkilərin və müsbət təsirlərin müqayisəsi zamanı çox halda ziddiyyətli nəticələr yaranır. Hətta tamamilə ziddiyyətli sosial-iqtisadi və demoqrafik nəticələrə gətirib müşahidə olunur. Sosial-demoqrafik nəticələrinə əsasən, əhalinin sayında və cins, yaş və milli tərkib kimi strukturlarında, eyni zamanda sosial münasibətlərin gərginlik dərəcəsinə və cəmiyyətin kriminallaşmasında yaranan dəyişiklikləri aid edə bilərik. Qeyd etmək

lazımdır ki, sosial-iqtisadi nəticələr məzmun etibari ilə ölkənin təsərrüfat quruluşunda, əmək ehtiyatlarının təhsil və peşə ixtisas tərkibi kimi strukturunda və sayında, əməkqabiliyyətli əhaliyə, ölkənin mövcud əmək bazarının durumuna, demoqrafik yüklənmənin dərəcəsində və əmək ehtiyatlarından istifadənin faydalılığında baş verən dəyişikliklərlə bağlıdır. Miqrantları qəbul edən ölkələr üçün miqrasiya proseslərinin iqtisadi effektinin ifadəsi olaraq istehsal olunmuş ÜDM dəyəri, əlavə olaraq başqa səviyyələrdə yaranmış büdcələrə gəlir daxil olmalarını göstərə bilərik. Bununla yanaşı, miqrantlara icazələrin verilməsinin təşkil edilməsi ilə bağlı yaranan birbaşa xərclər, müəyyən edilmiş qanunvericilik qaydalarını pozanların saxlanılması və deportasiyası səbəbindən yaranan xərcləri də qeyd etmək lazımdır (İbadov S., 2008).

Əhali miqrasiya prosesləri ilə iqtisadi inkişafının əlaqələrinin öyrənilməsi qərb ölkələrində ötən əsrin 60-cı illərində iqtisadi modellər çərçivəsində başlanmışdır. Bu istiqamətin əsas ideyası o idi ki, istehsal amillərindən biri olaraq işçi qüvvəsinin yerdəyişməsi iqtisadi artım tendensiyasına əhəmiyyətli təsir edir. Beynəlxalq miqrasiya prosesləri həm xarici işçi qüvvəsini daxil edən , həm də verən dövlətlərə iqtisadi təsir edir. Hər bir dövlətin də əsas məqsədi mənfi təsirləri uzaqlaşdırmaq və miqrasiya kimi vacib proseslərin müsbət təsirlərindən iqtisadiyyatın inkişafında səmərəli istifadə edilməsi olmalıdır.

## 1.3. Xarici təcrübənin öyrənilməsi

Miqrasiya prosesləri tarix boyu mövcud olmuş, XX əsrin sonları - XXI əsrin əvəllərində daha geniş əhatə almışdır və beləliklə miqrasiya müasir soaial-iqtisadi proseslərin ayrılmaz parçası kimi çox sayda ölkələrdə baş verən dəyişikliklərin əsas səbəblərindən olmuşdur.

Demək olar ki, bütün dövlətlər bu prosesə ayaqlaşmaq üçün əhalinin axınlarının idarə edilməsində və əhali miqrasiya proseslərinin tənzim olunmasında yeni mexanizmlər hazırlayırlar. Çünki,əhali miqrasiyası proseslərinin idarə olunmaması iqtisadi, soaial və demoqrafik vəziyyətin gərginləşməsinə təsir edən səbəblərə çevrilmişdir.

Azərbaycan Respublikası tarixi baxımdan çox olmayan müstəqillik dövrünə sahibdir və miqrasiya proseslərinin tənzimlənməsi proseslərinə həssaslıq və böyük qayğı ilə yanaşır. Miqrasiya proseslərinin idarə olunması və nəzarətdə saxlanması üçün lazım olan hər bir vasitə və potensiallardan səmərəli istifadə etməyə çalışır. Bu səbəbdən müasir dövlətin səmərəli və uğurlu miqrasiya siyasətini formalaşdırması üçün bu sahədə qabaqcıl ölkələrin yüz illərlə formalaşan miqrasiya təcrübəsinin hərtərəfli tədqiq edilməsi, öyrənilməsi , müsbət cəhətlərdən yararlanması və özünü doğrultmayan vasitələrdən qısa zamanda imtina edilməsi yüksək dərəcədə vacib əhəmiyyətə sahibdir. Bütün dövlətlər - immiqrantlar hesabına yaranan Amerika da , immiqrasiya üçün bağlı olan tək ölkə , çoxlu sayda insan resurslarına sahib olan Çin də müəyyən miqrasiya siyasətini formalaşdırır və icra edir. Lakin bütün dövlətlərin miqrasiya siyasətini birləşdirən əsas məqsəd dövlətin inkişaf məsələlərinin və beynəlxalq əlaqələrin daha uğurlu , müsbət nəticələr əldə etmək üçün əhali miqrasiya faktorundan yüksək səmərəli şəkildə istifadə etməsidir.

Beynəlxalq miqrasiya prosesləri ölkələrin və regionların fərqli sosial-iqtisadi inkişaf ilə bağlıdır. Əhalinin köç proseslərinin ən çox Amerikaya və inkişaf etmiş Avropa dövlətlərinə istiqamətləndiyini bilərək, həmin dövlətlərin miqrasiya siyasətinə diqqət yetirək .

Amerikanın böyük tarixi miqrasiya təcrübəsinə sahib olmasına baxmayaraq , ölkəmizdən fərqli olaraq immiqrasiya, emiqrasiya istiqamətlərində eyni zamanda tranzit zona kimi üç tərəfli miqrasiya istiqamətlərinə sahib deyil. Amerikada demək olar ki, emiqrasiya problemləri çox az şəkildə aşkara çıxır. Amerika miqrantları yalnız qəbul edən dövlətdir və burada miqrasiya tək istiqamətli proses formasında səciyyələnir. Klassik immiqrasiya dövlətləri ABŞ , Kanada , Avstraliya və Yeni Zelandiya sayılır. Bu ölkələrə daimi yaşamaq üçün daxil olanları immiqrant adlandırırlar. Bu ölkələrə gələn şəxslər ölkə vətəndaşları ilə eyni hüquqlara sahibdirlər. Klassik immiqrasiya dövlətlərindən fərqli şəkildə Qərbi Avropa dövlətlərində miqrasiya siyasəti demək olar ki, müvəqqəti yerdəyişmə mahiyyətli proses olaraq qəbul edilir. Bu ölkələrdə son otuz il müddətində müvafiq proses əsasən məhdudlaşdırıcı xarakter almışdır. Eyni zamanda bu ölkələrdə immiqrant sözü mövcud qanunvericiliyində əcnəbi sözü ilə dəyişdirilmişdir. Miqrasiya siyasəti Amerika tarixində ilk zamanlardan, həmişə kəskin müzakirə predmetinə çevrilmişdir. Tarixi məlumatlara əsasən qeyd etmək olar ki, XVIII əsrin sonlarında Pensilvaniya ştatına yaşayan ingilislər, alman immiqrantların köçünün artmasından narahat olaraq gərginlik yaratmışdılar (Abdullayev F., 2009).

Amerikanın dövlətinin tarixində vacib rol oynayan Bencamin Franklin etnik almanların xeyli sayda axını ilə əlaqəli öz narahatlığını qeyd etmişdi. Onun fikrinə əsasən , köç edən almanlar mədəni formada kifayət qədər inkişaf etməmişlər və yerli ingilis dilini çətinliklə öyrənirlər. Onların burada yaşaması aramızda kəskin qarmaqarışıqlıq yarada bilər - deyə qeyd etmişdi.

Amerikaya ilk zamanlarda sərbəst daxil olmaq hüququ protestant avropalılara şamil edilirdi. 1840-cı ildə isə Amerikaya katolik dininə mənsub olan dövlətlərdən immiqrant axınına qarşı “tanımaq istəmirik” adı ilə partiya yaranmışdır. Çində gələn miqrantlara qarşı isə 1878 - ci ildə “zəhmətkeşlər partiyasi” yaradılmışdı. Daha sonra isə miqrasiya siyasətinin mahiyyəti kəmiyyət məhdudiyyətlərindən keyfiyyət mahiyyətli tədbirlərə çevrilir. 1920-ci illərdən başlayaraq ilk dəfə kvotalaşdırma

fəaliyyəti tətbiq edilir. 1929-cu ildə kvotaların formalaşdırılması qaydaları işlənilir (1965 - ci ildə isə ləğv olunmuşdur), 1921-ci ilin miqrasiya kvotasına əsasən, Amerika əhalisinin milli tərkib balansının tarazsız olmasına zəmin yaratmamaq üçün bəzi proporsiyalar daxil edildi. Buraya illik miqrasiya axını qitə əhalisinin 17 faizindən çox olmamalı idi. Bu məhdudiyyət qərb ölkələrindən gələnlərə şamil edilmirdi. Amerika tarixində qeyd etdiyimiz kimi miqrasiya prosesləri, hər zaman mübahisə predmetinə çevrilmişdir. Miqrasiya proseslərinin idarə olunması istiqamətlərinə gəldikdə isə üç istiqaməti ayırmaq olar: immiqrasiya proseslərinin liberallaşması, qeyri-leqal miqrasiyanın qanuniləşdirilməsi və onun tamamilə ləğv edilməsi (https://en.wikipedia.org/wiki/Great_Migration_(African_American) ).

1974-1985- ci illər ərzində Qərbi Avropa ölkələrindən daxil olan miqrantların sayının yüksəldilməsi üçün bir neçə tədbirlər hazırlanmışdır. Hər il immiqrasiya edənlərin maksimum sayı 630 minə çatdırılmış, həm də ailəsi ilə gələnlərin miqdarının azaldılması hesabına yüksək ixtisasa sahib elmi kadrların ölkəyə miqrasiyasını stimullaşdırılmağa diqqət yönəldilmişdir. 1986-cı ildə tərtib olunan “immiqrasiya nəzarəti və islahatı haqqında akt” yüksək dərəcəyə çatan qanunsuz miqrasiyanın tənzim edilməsinə və idarə olunmasına yönəlmişdi. Həmin tarixdə ABŞ-da 5 milyon qanunsuz miqrant olduğu qeyd olunurdu. Yeni qəbul edilmiş akt Amerikada yaşayan qanunsuz miqrantların leqallaşdırılmasını məqsədli, eyni zamanda onun sonrakı zamanlarda artmasının qarşısını almağı nəzərdə tutan kompromis mahiyyətli bir sənəd idi. Xarici miqrantlar 1982-ci ilin yanvarınadək Amerikada yaşadığını sübut edirdisə, o zaman daimi yaşayış statusunu da əldə edə bilirdi. Bu tarixdən sonra olanlar isə deportasiya olunurdu (http://depts.washington.edu/moving1/ ) .

Bütövlükdə keçən əsrin ortalarından ABŞ-da miqrasiya siyasətinin əsas dörd hissəsini təşkil edən komponentlər bu gün də əsas prioritetlər formasında qalır. Bu istiqamətlər qeyd etdiyimiz kimi : yüksək ixtisaslı kardların miqrasiyası, humanitar immiqrasiya, miqrant ailələrinin birləşməsi və mədəni müxtəlifliyin təşkil olunmasına

istiqamətlənən miqrant axınlarıdır. 1980-ci ildə qaçqınlar barəsində akt qəbul olundu və illik limit olaraq 60 min nəfər təyin olundu. Ancaq ölkə prezidentinin öz sərəncamına əsasən limitdən artıq qaçqın axınının qəbul edilməsi hüququna sahibdir. Ona görə ki, qaçqınlar haqqında aktda yazıldığı kimi, Amerikanın dünyaya humanitar qayğısı aktın əsas predmetini təşkil edir.

Qeyd etdiyimiz dörd qrup miqrant arasında öz ailələri ilə qovuşmaq istəyənlar nisbətən daha çoxluğa sahibdir. Hər il bu səbəbdən 600 min miqrant müraciət edir. Amerika vətəndaşlarının isə öz doğma qohumları üçün (valideynlər, uşaqlar , həyat yoldası ,) say məhdudiyyati yoxdur. Ölkə qanunvericiliyi əsasən digər formada olan vətandaş qohumları üçün də xüsusi yaşıl kartlar “green card” mövcuddur. Amma vizaların verilməsində qanunvericiliyə əsasən ölkə və miqrantın fərqi nəzərə alınır.

Başqa miqrant kateqoriyası isə yüksək ixtisasa, intellektual səviyyəyə sahib mütəxəssislərdir. Müasir dövrümüzə qədər Amerikada bu kateqoriyaya ayrılan kvotaların sayı 1950-ci illərdən bəri daim artırılmaqdadır. Amerikada intellektual potensiala sahib miqrantlara, “beyin axını” olaraq adlandırılan prosesdə iştirak edənlər üçün nəzərdə tutulan HİB ( ixtisaslı mütəxəssislər ) vizasının illik kvota məhdudiyyəti 1994 - cü ildəki 66 min təyin olunmuş , 2003 - cü ildə isə artırılaraq 95 minə yüksəldilmişdir. İqtisadi proqnozlara əsasən, bu kateqoriyadan olan miqrant axınlarına tələb müasir dövr üçün 850 min təşkil edir və bu prosesdə Amerika və Avropa arasında ciddi rəqabət gedir. İxtisaslı kadrların, intellektual potensiala malik miqrantların miqrasiyasından (beyin axınından) qazanılan iqtisadi fayda, təqribi hesablamalara əsaən hər il 1,45-1,61 trilyon dollara qədərdir. Qanunsuz miqrantlarıda nəzərə alsaq bu rəqəm daha yüksəkdir (Веревкин Л.П., 2002).

İntellektual əmək miqrantlarının miqrasiya proseslərində stimullaşdırılması müasir zamanda hər bir dövlət üçün səciyyəvi istiqamətdir. Amerikanın miqrasiya siyasətinin mühüm məqsədi isə bu prosesdə bəzi vəzifələrə xidmət edir:

1) intellektual miqrantların və yüksək ixtisaslı kadrların gəlişi , Amerikanın təhsil sistemində yerli əhali hesabına hazırlanarkən ,sərf olunan məsrəflərə qənaət edir və dövlət təhsil sistemi bu vəzifədən azad olur;

2) təhsil almaq üçün gələn xarici tələbələrin çox sayda qəbul edilməsi və hazırlanması fəaliyyəti onların içərisindən yüksək savadlılarının seçilməsini, Amerikada daimi qalmasını stimullaşdırmağı , və həmin kadrların yüksək şəraitli iş yeri və mənzillə təmin olunması yolu ilə yüksək səviyyəli kadrların seleksiyasına sahib olmaqdır.

Bu vasitələrlə Amerikanın yaşayış tərzinin, mədəniyyətinin, iqtisadi səviyyəsinin vətənlərinə geri dönən tələbələr tərəfindən təbliğ olunması, Amerikapərəst xarici elitaların yaradılması kimi uzaqgörən vəzifələrdən çıxış edilir. Miqrasiyanın sonuncu qeyd etdiyimiz ideoloji aspektləri də çox vacib hesab edilir. Ona görə ki, bu proses emiqrasiya olunan ölkələrdə Amerikanın mədəni, ideoloji, iqtisadi və siyasi təsirinin yüksəlməsinə xidmət edir .

Miqrasiya siyasətində bu gün də təhsil miqrasiyası vacib onəm kəsb edən istiqamətlərdəndir. Xarici potensialın milli Amerika təhsil sisteminə cəlb olunması həm də yüksək intellektuala sahib olan kadrların burada qalmasına yönəlmiş bu siyasət ölkəyə yüksək səviyyədə iqtisadi , mədəni, və sosial dividentlər daxil edir.

Dövlət miqrasiya siyasətinin prioritet istiqaməti sayılan digər miqrant forması - humanitar miqrantlar qrupudur . Burada Amerikanın sığınacaq axtaran şəxsləri eyni zamand qaçqın və köçkünləri nəzərdə alaraq yaratdığı proqram və qanunvericiliklər aiddir. 1970-ci ildən bu günə kimi qüvvədə olan, qaçqın və köçkünlərin əsas kateqoriyalarını təyin edən çox saylı qanunlar qəbul edilmişdir. Beynəlxalq normalarda nəzərdə tutulduğu kimi, Amerikaya daxil olan qaçqının təqib olunma problemi və öz dövlətində yetərli müdafiə olunmaması əsas olmalı, humanitar səbəbdən yaranan şərtlərə cavab verməlidir (https://www.rescue.org/topic/refugees-america#how-many-refugees-are-resettled-in-the-us-and-who-decides) .

Qanuni miqrasiya siyasətinin son istiqaməti deyə bilərik ki , unikallığı ilə təkcə Amerika dövlətində həyata keçirilən istiqamətdir. Bu kateqoriyaya mədəni müxtəlifliyin dəstəklənməsi , himayə olunması proqramı daxilində gələnlər aid olunur. Dünyanın yekcins tərkibə sahib, tək millətdən ibarət əhaliyə sahib olan dövlətlərdən fərqli olaraq ABŞ əhalisinin tərkibinin etnik, mədəni, konfessional, formada çoxtərkibli olmasını dəstəkləyir. Elə bu səbəbdən də əvvəllər heç vaxt Amerika ilə miqrasiya münasibətlərində iştirak etməyən dövlətlər üçün xüsusi yaşıl kart lotereyaları keçirilir eyni zamanda bu kateqoriyadan olanlara viza əldə etməyə görə üstünlük verilir (Витковской Г., 2002).

Bu gün Amerikada miqrantlar haqqında əvvəlcədən informasiya əldə etmək sistemi (“Advance Passenger Infomation Sistem” APAS) xidmət göstərir. Buradan miqrantların pasport məlumatları miqrasiya və gömrük xidmətlərinə göndərilir ( Bəzi Avropa dövlətlərində də miqrasiya nəzarət xidməti işçiləri hava limanlarında , dəniz limanlarında xidmət göstərirlər). Qanunsuz miqrantları ölkəyə daxil edən hava nəqliyatı və dəniz nəqliyyatı firmalarına sanksiyalar qoyulur. İnkişaf etmiş ölkələrin demək olar ki, hamsında pasport ,viza və başqa qeydiyyat sənədlərinin xüsusi mühafizəsi sistemi icra olunur ki, bu sənədləri qeyri-qanuni əldə etmək və saxtalaşdırmaq qeyri mümkündür. Müvafiq sənədi olan şəxslərin biometrik göstəriciləri də sistemə daxil olunur. Qeyri - leqal miqrasiya proseslərinin digər forması saxta nikahların aparılması və bu yolla vətəndaşlıq almağa cəhd edilməsidir. Amerika miqrasiya xidməti orqanları hər il 750 - ə qədər bu cür faktları aşkar edir (https://ru.wikipedia.org/wiki/Advance_Passenger_Information_System).

2006 - cı ildə miqrasiya prosesləri ilə əlaqəli konqresdə mühüm müzakirələr aparıldı. Yeni qəbul edilən qanunvericilik təşəbbüsü əvvəlkilərə nisbətən konservativ mahiyyətli idi : qeyri-qanuni miqrantlar qısa zamanda Amerikanı tərk etməli , vizanı öz dövlətlərində gözləməli idilər. Bununla birlikdə miqrasiya siyasətində yeni qadağa tədbirləri icra olunmağa başladı. Sərhəd xidmətlərinin ərazisinin genişlənməsi , miqrant həbsxanalarının fəaliyyətə başlaması və sonda , Amerika və Meksika

arasındakı dövlət sərhədinin xeyli hissəsində 3138 km məsafədə hasar sədd çəkilməsi planlaşdırıldı. Hakimiyyətin bu addımlarını miqrantlar tərəfindən böyük qəzəblə qarşıladı. Amerikada 2006-cı ilin mart ayında qanuniləşmə tələbləri ilə bağlı çoxsaylı mitinqlər və nümayişlər təşkil edildi. 2006-cı il 1 may tarixində isə "miqrantsiz bir gün" devizi altında kütləvi mitinqlər keçirildi. Bütün bunlarda məqsəd biznes, təşkilat, təhsil sferasında və s. yerlərin miqrantlar tərəfindən məqsədli boykot olunması idi.

Göründüyü kimi , ABŞ-nın tarixində miqrasiyasının fərqli istiqamətləri və müxtəlif formaları olsa da , bu proseslərin təkamülündə yeni bir meyli də qeyd etmək olar ki , bu da XX əsrin başlanğıcından liberallaşma - yəni ölkəyə edilən miqrasiyaya qarşı qoyulan sərt məhdudiyyətlərin aradan qaldırılması istiqamətidir. Bu istiqamətin olması da təbiidir . Ona görə ki, XXI əsrdə inkişaf etmiş dövlətlərin enerji , elmi - intellektual potensial və s. müharibələrində işçi qüvvəsi, insan resursları ön sıralarda yer alır. Müasir zamanda miqrasiya siyasəti xüsusi rəqabət meydanına bənzəyir.

Düzgün formada planlaşdırılmış, məqsədə aparan miqrasiya siyasəti hər bir dövlətin inkişafının əsas amilini təşkil edir. Amerikanın Milli Elmlər Akademiyasının apardığı tədqiqatı nəticəsində bilinmişdir ki, XX əsrin sonlarında miqrasiya proseslərindən qazanılan gəlir 12 milyard dollardan çox olmuşdur. Bu prosesin qarşılığında miqrasiya proseslərinin əhalinin ailə gəlirinə və məşğulluq dərəcəsinə əhəmiyyətli təsiri olmuşdur. Qeyd etmək olar ki, eyni zamanda miqrantların əməyi bir çox xidmət və malların qiymətinin ucuzlaşınasını şərtləndirmişdir. Tədqiqat əsnasında miqrasiya prosesləri ilə əlaqəli cinayətkarlıq hallarının artması aşkar edilməmişdir (https://guides.ll.georgetown.edu/c.php?g=592919&p=4171684 ).

Avropanın inkişaf etmiş ölkələri yarım əsrdən çox müddətdir ki, miqrasiya siyasətinin formalaşdırılmasında oxşar mövqe nümayiş etdirirlər. Bununla yanaşı eyni zamanda bəzi dövlətlərin fərqli miqrasiya təcrübəsi də mövcuddur. Həmçinin eyni Avropa məkanında müxtəlif miqrasiya sistemləri də vardır. Bu kateqoriyalar,

mərkəzi Avropa ittifaqı kimi qeyd olunan ölkələr və Avrasiya məkanının - keçmiş SSRİ tərkibini əhatə edən dövlətlər sistemləridir.

İkinci Dünya müharibəsi bitdikdən sonra Avropanın qərb və şimalın ölkələrində xarici işçi qüvvəsinə kəskin ehtiyac yarandı. Buna səbəb isə tədricən yaranan iqtisadi artım və eyni zamanda müharibədən əvvəlki və sonrakı müddətdə əhali artım tendensiyasının xeyli aşağı düşməsi idi. Bu ölkələrə ilk gələnlər Cənubi Avropa, Yaxın Şərq, Şimali Afrika və Türkiyə dövlətindən idi. Miqrant işçi qüvvələri çox vaxtlarda ikitərəfli sazişlərlə, bir çox sahələrə, işəgötürənin iştirakı ilə birmüddətlik götürülürdü. Aşağı və orta ixtisasa sahib, tikinti sahəsində və ağır sənayedə işləyən miqrantların müddəti başa çatdıqdan sonra doğma vətənlərinə geri dönməli idilər.

Müvəqqəti işləmək üçün qəbul edilən razılaşmalar bir qədər zaman sonra özünü doğrultmadı. Qeydiyyata alınan 20 milyon xarici işçi miqrantların yalnız 50 faizi öz ölkələrinə qayıtmaq şərtini yerinə yetirmişdi. Bu vəziyyətdə dövlətlər işçi miqrantları deportasiya etmək yaxud qalan işçilərə daimi yaşayış statusunu vermək siyasətini üstünlük tutmadı . Bu prosesin paradoksal nəticəsi olaraq 1990 - cı illərə kimi (yarım əsr ötsə belə) bu ölkələrdə immiqrantların müvəqqəti şəxslər kimi nəzərə alınması idi. Mövcud vəziyyəti Almaniyada yayılan deyim çox dəqiq izah edir: müvəqqəti miqrasiyadan qalıcı heç nə yoxdur.

Artıq keçən əsrin 80-ci illərindən başlayaraq sənayenin yüksək inkişafı ləngiməyə başladı və aşağı ixtisas qrupunu təşkil edən miqrantların əmək fəaliyyətinə tələb azaldı. İşsizlik səviyyəsinin yüksəlməsi, bir çox siyasi partiyaların antimiqrant devizləri və s. miqrasiya proseslərini Avropada qəliz problemə çevirdi. Ötən əsrin 70-80 - ci illərində bütün Qərbi Avropanın əksər ölkələrində miqrasiya proseslərinə birmənalı qadağalar qoyuldu. Təkcə İsveçrə bu məhdudiyyətlərdə istisnalıq təşkil etdi. Beləliklə, keçən əsrdə Avropada ölkələrində miqrasiya siyasətinə aid əsas istiqamətləri aşağıdakı kimi qruplaşdıra bilərik :

1) Avropa ölkələrində müasir miqrasiya probleminin əsası ikinci dünya müharibəsindən on il əvvəl və müharibə bitdikdən sonra qoyulmuşdur;

2 ) işçi miqrantlar Avropa ölkələrinə sənaye sahələrinin yüksək inkişafı zamanı işçi qüvvəsinin azlığı səbəbindən gəlmişdilər ;

3 ) əhalinin miqrasiya problemini qəlizləşdirən əsas komponent ölkəyə daxil olan miqrant nəsillərinin cəmiyyətə adaptasiya ola bilməyən törəmələridir. Bu miqrantlar Avropada vətəndaşlıq statusuna sahib olsalar da, özlərini lazımi hüquqlu vətəndaş kimi hesab edə bilmirlər.

4 ) Ötən əsrin II yarısında əksər Qərbi Avropa dövlətlərində miqrasiya siyasətinin əsas məqsədi xarici əhali axınını sıfır həddində olmasına nail olmaq kimi müəyyən edilmişdi.

Qərbi Avropada XX əsrin sonlarında əhali miqrasiya siyasəti istiqamətində uğursuzluq kimi nəticələnən vəziyyətin səbəbləri müxtəlif idi. Ən əsası miqrasiyanı tənzim edən dölət strukturlarının və müxtəlif institutların, işləmə fəaliyyətində olan pərakəndəlik , eyni zamanda məlumatların toplanması və sənədlərin yoxlanılmasını həyata keçirən xüsusi məlumat bazanın çox az inkişaf etməsi idi. Bu səbəbdən miqrasiya siyasətinin yekunu kimi , nəinki xaricdən miqrant axınınını zəiflətmədi , həm də qeyd etdiyimiz Avropa dövlətlərinin iqtisadi, sosial və siyasi inkişafı, qloballaşma mühitinin tələblərinə uyğun olmadı. Ona görə ki, inkişaf etmiş dövlətlərə əmək miqrantlarının axın intensivliyi eyni zamanda tarixi amillərlə bağlıdır. Bu cür ölkələr miqrasiya gərginliyini azaltmaq üçün inkişaf etməkdə olan ölkələr ilə müxtəlif istiqamətlərdə əməkdaşlıq etməlidirlər.(məs: dövlət iqtisadiyyatının inkişaf etməsində əməkçi miqrantlara kömək edilməsi , işçi qüvvəsinin beynəlxalq miqrasiyası zamanı müvafiq müqavilələrin bağlanması və s ) (http://www.emmanuel-comte.eu/publication_2649.html ).

Müasir zamanda Avropa İttifaqı (Aİ) ölkələri arasında dövlət sərhədlərinin açıldığına görə miqrasiya prosesinin tənzim edilməsinə xüsusi önəm verirlər. Belə ki, ittifaqa aid olan dövlətlərin vətəndaşları iş axtarmaq niyyəti ilə bu ölkələrdən birinə

gedə və orada yaşaya bilər. Bu cür tənzimləmə forması inkişaf etmiş Avropa ölkələrinin daxili miqrasiya proseslərinə daha yaxşı nəzarət etmək fürsəti yaradır. Avropa İttifaqının qanunvericiliyinə əsasən ittifaqa üzv ölkələrin əhalisinə vahid sosial mühitin yaradılması təmin olunur. Eyni zamanda, təhsil imkanlarının bərabərləşdirilməsi və ittifaq daxilində diplomların tanınması üçün də müvafiq proqramlar icra olunur. Bu üsullarla da, miqrasiya prosesini kompleks səmərəli formada tənzimləməyə nail olurlar.

Ölkə əhalisinin vizasız rahat hərəkət etməsi Avropa İttifaqı, Amerika , Kanada və Yaponiya dövlətləri öz aralarında və bir neçə ölkələrə güzəştlər təyin etmişlər. Bu istiqamət isə qanunsuz miqrasiyanın miqdarının azalması üçün mühüm addımdır. Qeyd etdiyimiz inkişaf etmiş ölkələr öz aralarında dövlət sərhədlərini yumşaltsalarda eyni zamanda inkişaf etməkdə olan öklələrlə sərhədləri bərkidirlər ki, qeyri-qanuni miqrasiyaya şərait yaratmasınlar. Elə bu səbəbə görə , İspaniya və Mərakeşin dövlət sərhəddində "Avropa İttifaqı"nın ən əsas sərhəd nöqtələrindən biri yerləşir. Aİ üzvləri daxilində qanunsuz miqrasiya ilə mübarizə aparmaq məqsədi ilə 2002-2006-cı illərdən bəri Avropa İttifaqı ilə üçüncü ölkələr arasında miqrasiya, viza və sığınacaq məsələlərinə aid əməkdaşlığı əks etdirən müxtəlif proqramlar fəaliyyət göstərir.

Müxtəlif dövlətlərin apardığı miqrasiya siyasətinin istiqamətlərinin öyrənilməsi və bu istiqamətdə təcrübə mübadiləsi mühüm və vacib vəzifə olmuşdur. "Avropa İttifaqı" və "Müstəqil Dövlətlər Birliyi" kimi böyük regional təşkilatlar eyni zamanda Amerika, Türkiyə, Rusiya və Yaponiya kimi ölkələr əhali miqrasiyasının dövlətlər tərəfindən tənzimlənməsi və idarə olunması istiqamətində əməkdaşlığa və tədqiqatlara mühüm əhəmiyyət verirlər. Əhali miqrasiyasınınn tənzimlənməsində xarici təcrübənin öyrənilməsi və bu təcrübədən yararlanılması ölkə daxilində miqrasiya proseslərinin beynəlxalq standartların tələblərinə uyğun formalaşdırılması, iki və çoxtərəfli istiqamətlərdə müqavilələrin bağlanması, başqa ölkələrlə qarşılıqlı formada miqrasiya siyasətinin uyğunlaşdırılmasını şərtləndirir (http://static.bsu.az/w16/dunya_azerbaycanlilari_tarix_ve_muasirlik_IV%20buraxiliw.pdf ).

# II FƏSİL. AZƏRBAYCANDA ƏMƏK MİQRASİYASINA DAİR MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

## 2.1. Azərbaycanda əmək miqrasiyasının mövcud vəziyyətinin öyrənilməsi

Ölkəmizdə miqrasiya prosesləri dövlət müstəqilliyimizdən bu günə kimi sosial-iqtisadi və digər proseslərin təsirindən müxtəlif istiqamətləri əhatə etmişdir. Bu istiqamətlərə aşağıdakılar aiddir: 90-cı illərdə baş verən müharibənin nəticəsi olaraq yerli əhalinin öz doğma evlərindən didərgin düşərək ölkənin digər şəhər və mərkəzlərə köçürülməsi; regionlarda çoxda yaxşı olmayan sosial-iqtisadi vəziyyətlə əlaqədar insanların kəndlərdən şəhərə və ya başqa ölkələrə axını; müasir vəziyyətdə ölkənin iqtisadi, sosial və turizm sahəsində inkişafına əsasən ölkəyə miqrant axını.

Qeyd etdiyimiz istiqamətlərin müxtəlifliyi müstəqilliyimizdən bu yana ölkəyə gələn və gedənlərin sayınında illər üzrə fərqli hal alması ilə nəticələnmişdir. Miqrasiya proseslərinin nəticəsi olaraq əhalinin artımı və azalmasını son 20 il üzrə aşağıdakı cədvəldə təhlil edək.

**Cədvəl 1: Azərbaycan Respublikasında 2001-2019-ci illərdə əhalinin miqrasiya göstəricilərinin dinamikası (min nəfər)**

| İllər | əhalinin artması (+) və azalması (-) | |
|---|---|---|
| | cəmi | orta hesabla |
| 2001-2005 | -10,4 | -2,08 |
| 2006-2010 | +1,9 | +0,38 |
| 2011-2015 | +8,2 | +1,64 |
| 2016-2019 | +4,7 | +1,175 |

**Mənbə:** “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi”nin rəsmi saytı, https://www.stat.gov.az/source/demoqraphy/

Cədvəl 1-in məlumatlarına əsasən deyə bilərik ki, 2001-2005-ci illər ərzində miqrasiya saldosu mənfi olmuşdur. Bu illər ərzində miqrasiya proseslərində 10,4 min nəfər azalma olmuşdur, bu isə illər ərzində orta hesabla 2,08 min nəfər deməkdir. 2006-2010-ci illər ərzində miqrasiya saldosu böyük fərqlə müsbətə çevrilmişdir. Bu

illərdə əhali miqrasiyasında ümumi olaraq 1,9 min nəfər artım olmuşdur ki, bu da illər ərzində orta hesabla 0,38 min nəfərdir.

Miqrasiya proseslərində əhali iştirakına görə 2011-2015-ci illər üzrə 8,2 min nəfər artım müşahidə olunmuşdur ki, bu da illər ərzində orta hesabla təxminən 1,64 min nəfərdir. 2016-2019-cu illər ərzində isə miqrasiya proseslərində 4,7 min nəfər artım olmuşdur. Bu isə orta hesabla 1,175 min nəfərdir.

2000-2005-ci illərdə miqrasiya saldosunun mənfi olmasının əsas səbəbləri kimi , ölkədəki sosial-iqtisadi vəziyyəti, vətandaşların daha yaxşı iş tapmaq məqsədi ilə xarici ölkələrə köç etməsini və s. göstərmək olar.

2006-2010-cu illər ərzində miqrasiya saldosunun müsbətə çevrilməsinə səbəb kimi ölkənin ayrı-ayrı şəhər və regionlarının sosial-iqtisadi inkişafını göstərmək olar. Sosial-iqtisadi inkişafın səbəbləri kimi 2004-cu ildən başlayaraq regionların inkişafını nəzərdə tutan dövlət proqramlarını göstərmək olar. 2004-2008-ci illərdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" həyata keçirilmişdir. Dövlət proqramının vəzifələri əsaəsən regionlarda əhalinin sosial-iqtisadi vəziyyətinin, yaşayış səviyyəsinin yüksəldilməsi, qeyri-neft sektoru başda olmaqla iqtisadiyyatın inkişafı və təkmilləşdirilməsi və s. vacib məsələlər olmuşdur. Regionların inkişafını nəzərdə tutan müvafiq proqramlar daha da təkmilləşdirilərək 2009-2013, 2014-2018- ci illərdə də icra olunmuşdur və hal-hazırda "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" icra olunmaqdadır.

Respublikamızda miqrasiya dikamikasının dəyişməsində şəhər və kənd yerlərinin payına görə illər ərzind fərqlər mövcud olmuşdur. Bu fərqlərin təhlili öz növbəsində şəhər və kənd yerlərində miqrasiya meylini aşkara çıxarır.

**Cədvəl 2: Azərbaycan Respublikasında 2005-2019-ci illər ərzində beynəlxalq miqrasiya proseslərində iştirak edənlərin dinamikası**

| İllər | Miqrasiya dinamikası | Şəhər yerində | Kənd yerində |
|---|---|---|---|
| 2005 | -0,9 | -0,6 | -0,3 |
| 2006 | -0,4 | -1,9 | 1,5 |
| 2007 | -1,1 | -1,4 | 0,3 |
| 2008 | 1,1 | 0,5 | 0,6 |
| 2009 | 0,9 | 0,1 | 0,8 |
| 2010 | 1,4 | 1,2 | 0,2 |
| 2011 | 1,7 | 2,0 | -0,3 |
| 2012 | 2,0 | 1,8 | 0,2 |
| 2013 | 2,3 | 1,2 | 1,1 |
| 2014 | 1,1 | 0,6 | 0,5 |
| 2015 | 1,1 | 0,6 | 0,5 |
| 2016 | 1,5 | 1,0 | 0,5 |
| 2017 | 1,2 | 0,6 | 0,6 |
| 2018 | 1,6 | 0,5 | 1,1 |
| 2019 | 0,4 | 0,1 | 0,3 |

**Mənbə:** "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi"nin rəsmi saytı, https://www.stat.gov.az/source/demoqraphy/

Cədvəl 2-nin statistik məlumatlarına baxsaq, görərik ki, ölkəmizdə 2005-ci ildən 2008-ci ilədək miqrasiya dinamikasında azalma qeydə alınmış və bu proses şəhər yerlərində daha çox baş vermişdir. Bu illər ərzində miqrasiya dinamikasında təqribən 2,4 min nəfər azalma olmuşdur. Şəhərlərdə bu illər ərzində miqrasiya dinamikasında 3,9 min nəfər azalma olduğu halda, kənd yerlərində 1,5 min nəfər artım qeydə alınmışdır. 2006-2007-ci illər ərzində ölkədə miqrasiya dinamikasında azalma olsa da, kənd yerlərində bu proses artım ilə nəticələnmişdir. 2008-ci ildən başlayaraq miqrasiya saldosu müsbət olmuşdur. Müvafiq prosesdə şəhər yerlərinin payı daha çox olmuşdur. 2008-ci ildən etibarən 2020-ci ilədək, yalnız 2011-ci ildə kənd yerlərinin hesabına miqrasiya dinamikasında 0,3 min azalma baş vermişdir. 2013-cu ildən etibarən isə miqrasiya dinamikasının artım tempində azalma müşahidə olunur. Miqrasiya proseslərin iştirak edənlərin, ölkədən gedən və ölkəyə gələnlərin içərisində əməkçi miqrantlar və ya əmək qabiliyyətli əhali daha çoxluq təşkil edir. Bunun səbəbi isə onunla əlaqəlidir ki, vətəndaşlar əsasən daha yaxşı iş tapmaq və

həyat səviyyəsinin yaxşılaşdırmaq üçün inkişaf etmiş ölkələrə üz tuturlar. Son 10 il müddətində ölkəyə gələn və ölkədən gedənləri ölkələr üzrə təhlil etsək daha məqsədəuyğun olar.

**Cədvəl 3: Azərbaycan Respublikasına daimi yaşayış üçün gələn miqrantların ölkələr üzrə təsnifatı (nəfərlə)**

| Ölkələr | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| C Ə M İ | 2228 | 2181 | 2172 | 3129 | 1859 | 2649 | 3233 | 3073 | 3220 | 2042 |
| ABŞ | 3 | 3 | - | 7 | 7 | 3 | 9 | 5 | 2 | 11 |
| Almaniya | 3 | 8 | 4 | 8 | 16 | 12 | 8 | 10 | 12 | 15 |
| Belarus | 58 | 48 | 62 | 21 | 4 | 5 | 14 | 13 | 21 | 10 |
| Estoniya | - | 3 | 4 | 3 | - | - | - | 1 | 3 | - |
| Gürcüstan | 35 | 48 | 7 | 696 | 490 | 782 | 1134 | 830 | 914 | 747 |
| İran | 5 | - | - | 120 | 106 | 144 | 145 | 103 | 121 | 95 |
| İsrail | 7 | - | 4 | 6 | 8 | 3 | 6 | 3 | 5 | 4 |
| Qazaxıstan | 177 | 183 | 229 | 130 | 81 | 103 | 132 | 157 | 127 | 81 |
| Qırğızıstan | 4 | 13 | 33 | 42 | 16 | 33 | 46 | 51 | 43 | 26 |
| Latviya | 3 | 5 | 11 | 7 | 2 | 2 | 2 | - | 3 | 2 |
| Litva | - | - | - | 9 | 2 | 6 | 3 | 3 | 5 | - |
| Moldova | 2 | 11 | - | 16 | 5 | 13 | 18 | 22 | 13 | 6 |
| Özbəkistan | 53 | 58 | 62 | 93 | 68 | 95 | 116 | 136 | 114 | 47 |
| Əfqanıstan | … | … | … | … | … | 22 | 33 | 30 | 23 | 8 |
| Pakistan | - | - | - | 45 | 22 | 30 | 19 | 22 | 28 | 18 |
| Hindistan | … | … | … | … | … | 4 | 5 | 11 | 14 | 5 |
| Polşa | - | - | - | 1 | - | 1 | - | - | 2 | - |
| Rusiya Federasiyası | 1706 | 1655 | 1628 | 1098 | 623 | 930 | 910 | 988 | 1056 | 572 |
| Tacikistandan | 7 | 3 | 11 | 4 | 9 | 8 | 7 | 11 | 6 | 3 |
| Türkiyədən | 4 | 3 | 4 | 398 | 160 | 164 | 214 | 288 | 359 | 197 |
| Türkmənistan | 62 | 37 | 36 | 91 | 48 | 50 | 124 | 115 | 129 | 78 |
| Ukrayna | 97 | 103 | 73 | 173 | 72 | 99 | 126 | 149 | 150 | 88 |
| Yunanıstan | - | - | - | 1 | - | - | 1 | - | - | - |
| digər xarici ölkələrdən | 2 | - | 4 | 160 | 120 | 135 | 156 | 113 | 51 | 26 |
| MDB ölkələrindən | 2166 | 2111 | 2134 | 1668 | 926 | 1336 | 1493 | 1642 | 1659 | 911 |
| Digər xarici ölkələrdən | 62 | 70 | 38 | 1461 | 933 | 1282 | 1740 | 1431 | 1561 | 1131 |

**Mənbə:** "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi"nin rəsmi saytı, https://www.stat.gov.az/source/demoqraphy/

Cədvəl 3-ün statistik göstəricilərindən məlum olur ki, 2010-1019-cu illərdə xarici ölkələrdən ölkəmizə gələn miqrant dinamikası fərqli tendensiyalarla müşahidə olunmuşdur. Məsələn 2011-ci ildə respublikamıza gələn 2181 nəfərin 96,7 faizi (2111 nəfər), 2016-cı ildə 46,1 faizi (1493 nəfər), 2019-cu ildə isə, 44,6 faizi (911 nəfər) MDB ölkələrindən gələnlər olmuşdur. Müvafiq olaraq 2011-ci ildə respublikamıza gələnlərin 3,3 faizi (70 nəfər), 2016-cı ildə 53,9 faizin (1740 nəfər), 2019-cu ildə isə 45,4 faizi (1131 nəfər) digər ölkələrdən gələnlər olmuşdur.

**Cədvəl 4: Azərbaycan Respublikasından xarici dövlətlərə daimi yaşayış üçün gedən vətəndaşların sayı. (nəfər)**

| Ölkələr | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| C Ə M İ | 799 | 484 | 226 | 781 | 795 | 1557 | 1711 | 1901 | 1580 | 1654 |
| ABŞ-a | 6 | 16 | 8 | 11 | 12 | 20 | 28 | 29 | 25 | 27 |
| Almaniya | 9 | 4 | 6 | 39 | 33 | 17 | 22 | 25 | 22 | 25 |
| Belarus | 17 | 16 | 4 | 10 | 11 | 52 | 61 | 68 | 59 | 58 |
| Estoniya | - | - | - | - | - | 1 | 2 | 1 | 1 | - |
| Gürcüstan | 2 | 5 | 1 | 15 | 13 | 17 | 27 | 31 | 28 | 29 |
| İsrail | 6 | 6 | - | - | 8 | 3 | 10 | 8 | 6 | 7 |
| Qazaxıstan | 260 | 168 | 56 | 85 | 99 | 482 | 502 | 474 | 306 | 422 |
| Qırğızıstan | 1 | - | - | 12 | 8 | 10 | 12 | 22 | 20 | 18 |
| Latviya | - | - | 1 | - | 1 | 1 | 2 | 1 | 1 | 1 |
| Litva | 5 | 2 | 1 | - | 1 | - | - | - | - | - |
| Moldova | - | - | 1 | 6 | 7 | 9 | 12 | 19 | 7 | 4 |
| Özbəkistan | 3 | 2 | 6 | 27 | 33 | 20 | 23 | 31 | 48 | 27 |
| Rusiya Federasiyası | 430 | 204 | 125 | 439 | 443 | 782 | 816 | 920 | 803 | 795 |
| Türkiyə | 10 | 9 | 1 | 37 | 39 | 66 | 97 | 101 | 84 | 89 |
| Türkmənistan | 2 | 1 | 2 | 12 | 16 | 17 | 19 | 28 | 24 | 10 |
| Ukrayna | 42 | 38 | 11 | 60 | 35 | 22 | 29 | 102 | 99 | 92 |
| digər xarici ölkələrə | 6 | 13 | 3 | 25 | 36 | 38 | 49 | 41 | 46 | 49 |
| MDB ölkələrinə | 755 | 429 | 205 | 651 | 652 | 1394 | 1474 | 1664 | 1366 | 1426 |
| Digər xarici ölkələrə | 44 | 55 | 21 | 130 | 143 | 163 | 237 | 237 | 214 | 228 |

**Mənbə:** "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi"nin rəsmi saytı, https://www.azstat.org/MetaDataG/

Son 10 il ərzində ölkəmizdən digər xarici ölkələrə gedənlərin dinamikasındada xeyli fərqlər vardır. Cədvəl 4- də həmin fərqləri təhlil edək.

Cədvəlin məlumatlarına əsaslanaraq demək olar ki, 2010-2019-cu illər ərzində Azərbaycandan xarici ölkələrə gedən vətəndaşların sayı 11484 nəfər olmuşdur. Respublikadan gedən vətəndaşların ümumi cəmində, Müstəqil Dövlətlər Birliyinin payı 10016 nəfər (87,2%) təşkil etmişdir. Digər xarici ölkələrə gedənlərin payı isə 1468 nəfər (12,8 %) olmuşdur. Bu illər ərzində ölkədən gedənlərin 50,1 faizi (5757 nəfər) Rusiya Federasiyasına, 24,8 faizi (2854 nəfər) Qazaxıstana və 4,6 faizi (530 nəfər) Ukraynaya üz tutmuşdur. Eyni zamanda qeyd edə bilərik ki, 2014-cu ildən etibarən ölkəmizdən Qazaxıstana gedənlərin sayında artım müşahidə olunur. Eyni zamanda Rusiya Federasiyasına gedənlərin sayı 2015-ci ildən başlayaraq əvvəlki illərə nisbətən artmışdır. Ölkəmizdən gedənlər içərisində avropa ölkələrinə üz tutanların sayında da əvvəlki illərə nisbətən artım nəzərə çarpır.

## 2.2. Azərbaycanda əmək miqrasiyasının iqtisadi inkişafa təsirinin müqayisəli təhlili

Aparılan bir çox araşdırmalara əsasən, miqrasiya proseslərinin ölkələrin iqtisadi inkişafına etdiyi təsirlərin əsas istiqamətlərini aşağıdakılardır:

1. makroiqtisadi prosseslər: miqrasiya hesabına ölkənin ümumdaxili məhsul həcminin artımı, inflyasiyanın, investisiya prosesinin, əmək haqqının, maddi nemətlərə və xidmət sahələrinə tələb səviyyəsinin, toplanan vergilərin əlaqəsi, miqrasiyanın başqa makroiqtisadi komponentlərlə qarşılıqlı əlaqəsi, əməkçi miqrantların hesabına pul daxilolmalarının ölkənin tədiyə balansındakı müsbət təsirləri;
2. əmək bazarı : əhali miqrasiyasının işsizliyin dərəcəsinə, əmək fəaliyyətinin tələb və təklifinə, yerli işçi qrupu və əmək miqrantları arasında yaxşı iş tapmaq üçün rəqabətə təsiri;

3. əhalinin məşğulluğu: əmək fəaliyyətində yaranan struktur dəyişiklikləri, miqrasiya proseslərinin işçi qüvvəsinin həcminə təsiri;

4. mikroiqtisadi proseslər: əmək fəaliyyətinin axın üzrə effektivliyinin dəyərləndirilməsi, ev təsərrüfatlarının yaşayış səviyyəsinə əhali miqrasiyasının müxtəlif təsirləri;

5. gizli proseslər: kölgə iqtisadiyyatında və qanunsuz məşğulluq fəaliyyətində miqrasiyanın rolu;

6. sosial siyasət: əməkçi miqrantların qəbul edilməsinə və onların sosial uyğunlaşmasına çəkilən məsrəflər, miqantların sosial təminatı, lazımi əlavə infrastrukturun formalaşdırılması və s.

Miqrasiyanın təsirində iqtisadi səmərəlik miqrasiya siyasətinin icra olunmasında dövlət məsrəfləri ilə sosial-iqtisadi gəlirlərin müxtəlif formalarda müqayisəsini gərəkdirir.

Bir çox iqtisadi ədəbiyyatlarda iş qüvvəsinə sahib əhalini xaric edən və daxil edən dövlətlər üçün miqrasiya proseslərinin ola biləcək iqtisadi və sosial nəticələri fərqləndirilir. Əmək qüvvəsini ixrac edən ölkələr üçün əhalinin miqrasiyasından iqtisadi fayda və itkilər ümumi formada aşağıdakı cədvəldə qeyd olunan göstəricilərdən ibarətdir (Cədvəl 5).

**Cədvəl 5: İşçi qüvvəsini xaric edən dövlətlər üçün miqrasiyanın ola biləcək iqtisadi və soasial nəticələri**

| Müsbət | Mənfi |
|---|---|
| Miqrasiya etmiş işçilərin yüksək ixtisas və yeni texnoloji biliklərin əldə etməsi və geri qayıdarkən bu biliklərdən ölkənin inkişafında istifadəsi | Daxili əmək bazarında tələbat olan ixtisaslar üzrə tələb və təklif nisbətinin pozulması |
| Pul köçürmələrinin hesabına tədiyə balansının artırılması və ÜDM-un formalaşmasında rolu | "Beyin axını" prosesində, yüksək savadlı mütəxəssislərin itirilməsi |
| Əmək bazarında yaşanan gərginliyin azaldılması, işsizlik dərəcəsinin aşağı endirilməsi, məşğulluq təşkilatları tərəfindən yeni iş yerlərinin artırılmasına və işsizliyə görə yardım ödənişlərinə qənaət | Müvəqqəti əmək miqrasiya prosesinin daimi forma alması və bunun ölkənin əhali strukturuna təsiri |
| Əhalinin əmtəə və xidmətlərinin artımı, ölkəyə investisiya qoyuluşunun artırılması | Demoqrafik durumun gərginləşməsi:əhalinin struktur balansının pozulması(yaş,cins və s.üzrə |
| Ev təsərrüfatlarına miqrantlar tərəfindən köçürülən istehlak malları hesabına iqtisadi effekt və dolayı vergi gəlirlərinin çoxaldılması | |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur.

İqtisadi ədəbiyyatlarda eyni zamanda xarici işçi miqrantları daxil edən dövlətlər üçün də miqrasiyanın yaratdığı iqtisadi təsirlər fərqləndirilmişdir. Aşağıdakı cədvəldə bu təsirlər göstərilmişdir (Cədvəl 6).

**Cədvəl 6: İşçi qüvvəsi daxil edən dövlətlər üçün miqrasiyanın ola biləcək iqtisadi və sosial nəticələri**

| Müsbət | Mənfi |
|---|---|
| Ölkənin daxili əhali hesabına doldura bilmədiyi boş iş yerlərinin tamamlanması, Əmək bazarında zəruri ixtisaslara tələbin ödənilməsi | Daxili əmək bazarında işçi qüvvəsinin durumunun mürəkkəbləşməsi, yen iş tapmaq üçün rəqabətin artması.Vətəndaşların əmək haqqı səviyyəsinin aşağı düşməsi |
| İxtisaslı işçi qüvvəsi hesabına daha az xərclə istehsalın baş tutması səbəbindən, ölkədə istehsal olunan əmtəələrin qiymətinin azalması | Nisbətən ucuz işçi qüvvəsinin yaranması nəticəsində, işçi əməyinə qənaət edən texnologiyaların zəif inkişafı |
| İxtisaslı işçilərin, peşəkar kadrların hazırlanması üçün təhsil və digər istiqamətlərdə çəkilən xərclər | Miqrantların sosial müdafiəsi, onların adaptasiya olması üçün hazırlanan proqramlara çəkilən xərclər |
| İstehsal fəaliyyətinin yüksəldilməsi və əlavə məşğulluğun formalaşması hesabına yaranan səmərəli effekt | Miqrantlar hesabına pul vəsaitlərinin və digər əmtəələrin ölkədən çıxması |
| Xarici investorların cəlb edilməsi və yeni texnologiyaların tətbiq olunması üçün ilkin addımların atılması | Yüksək ixtisaslı iş sahələrində xarici işçi miqrantlardan asılılıq |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur.

Beynəlxalq əmək miqrasiyanın iqtisadiyyata təsiri çox zaman əmək bazarındakı mövcud vəziyyətdən asılıdır. Əmək bazarının işçilərə tələb və təklif miqdarından asılı olaraq, daxilo əmək bazarını üç qrupa bölmək olar:

1) əməyin artıqlığı, bu vəziyyətdə əmək bazarında işçi qüvvəsinin təklifi tələbdən xeyli çox olur və eyni zamanda çox sayda işsizlər qrupu formalaşır;

2) əməkin çatışmazlığı, bu vəziyyətdə isə əmək bazarında tələb təklifi xeyli sayda üstələyir , işçi əməyinə böyük ehtiyac yaranır;

3) tarazlıq vəziyyəti , bu vəziyyət iqtisadiyyat üçün ən optimal vəziyyətdir. Bu zaman işçi əməyinə olan tələb müvafiq təkliflə eyni sayda olur. Başqa sözlə desək əmək bazarının fərqli sahələrində işçilərə olan ehtiyac tam ödənir və işsizlər kateqoriyası olmur. Bu vəziyyətdə bərabər şərtlərdə, xarici əmək miqrantlarının gəlməsi ölkədəki işsizlik səviyyəsini yuxarı qaldırır. Burada əsas məsələ isə işsizliyin xarakterinidir. Yəni bu işsizlik iqtisadi zəifləmə səbəbindən yaranan dövri işsizlik və ya əmək bazarında yaşanan struktur dəyişkənliyi ilə əlaqəli ola bilər. Bu formaların fərqindən asılı olaraq xarici işçi qüvvəsinə ehtiyac yarana bilər.

Miqrasiyanın əmək bazarına qeyd etdiyimiz təsirlərinin nəzarətdə saxlanması və əmək bazarında gərginliyin yaranmaması üçün bir çox ölkələrdə əmək kvotası tətbiq olunur. Yəni əmək bazarında xarici işçi qüvvəsinə yaranan ehtiyacın sayı təqribi müəyyənləşdirilir və xaricdən müəyyən edilmiş saydan çox əmək miqrantı qəbul edilmir.

Ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra neft sektorunun yüksək inkişafı nəticəsində milli iqtisadiyyatımızın vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdı və 2007-ci ildə çox yüksək səviyyəyə catdı. Elə buna görə də, ölkəmizə iş tapmaq səbəbi ilə üz tutan miqrantların sayında ilbəil kəskin artım baş verdi. Bütün bu proseslər isə əmək miqrasiyasının tənzimlənməsi və idarə olunmasının müasir inkişaf mərhələsinə keçid etməsini şərtləndirdi. Miqrasiya siyasətinə yenidən baxılmasına ehtiyac yarandı və nəticə olaraq əmək kvotası tətbiq olunmağa başladı. Qeyd etmək lazımdır ki, əmək kvotası 2016-cı ildə "Nazirlər Kabineti" tərəfindən təsdiq edilən

“Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası”na uyğun olaraq tənzimlənir və hər il müxtəlif son həddi təşkil edir. Son illərin əmək kvotasına nəzər yetirərək xarici işçi əməyinin əmək bazarındakı rolunu təhlil edək. Aşağıdakı diaqramda 2010-2020-ci illər ərzində əmək miqrasiyası kvotasının dəyişilmə dinamikası göstərilmişdir.

**Diaqram 1: 2010-2020 ci illərdə kvota dinamikası**




| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kvota sayı | 10700 | 11315 | 11970 | 12000 | 12000 | 11239 | 9480 | 7430 | 7300 | 6815 | 6740 |

**Mənbə:** “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi”nin rəsmi saytı, https://www.sosial.gov.az/

Ölkəmizin iqtisadi inkişafı ilə əlaqədar, xarici işçilər üçün əmək kvotası 2010-2014-cü illərdə umumi olaraq 12%-qədər yüksəldilmişdir. Bu proses demək olar ki, tikinti sahələrinin inkişaf etməsi eyni zamanda bu sahə üçün nəzərdə tutulmuş kvotanın (36%) yüksəldilməsinə görə baş vermişdir. Növbəti il yaşanan iqtisadi problemlərə görə əmək kvotaları 2015-ci ildən başlayaraq aşağı salınır. Məsələn: 2017-ci ildə nəzərdə tutulmuş kvota 2014-cü ildə təsdiq edilmiş kvotadan 38 faiz azdır. Kvotanın azalmasında əsasən tikinti sahələrinin rolu əsasdır belə ki, bu sahədə 2016-cı ildə nəzərdə tutulmuş plan (4000 nəfər) 2014-cü ildə təsdiqlənən plan sayından (5.650 nəfər) 29,2 faiz azdır.

2018-ci ildə “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti” rəy alınması üçün “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” nə (AR ƏƏSMN) 6491 müraciət etmişdir ki, bunlarında 32170- si yeni,

3274-i isə əvvəlki illərdə verilən iş icazələrin vaxtının artırılması ilə əlaqəli olmuşdur. Göndərilən müraciətlər yoxlanmış və 3991 nəfərə işləmək üçün icazə verilməsi və ya vaxtının artırılması qərara alınmışdır. 2500 xariciyə isə işləmək üçün icazə verilməsi məqsədəuyğun sayılmamışdır. Ölkəmizdə işləmək üçün müraciətlər əsasən Türkiyədən, Böyük Britaniyada və Hindistan və digər ölkələrdən olmuşdur. 2018-ci ildə ölkəmizdə əmək miqrasiya kvotası 7300 nəfər təyin olunmuşdur.

2019-cu ildə isə iş üçün icazə almaq isdəyənlərin ümumi sayı əvvəlki illə müqayisədə artaraq 6941 nəfər olmuşdur və onların 2155 nəfərinin iş icazələrinin vaxtının artırılması, 2122 nəfərinə isə işləmək üçün icazəsi verilməsi, qərara alınmışdır, 2664 xariciyə işləmək üçün icazə verilməsi məqsədəuyğun sayılmamışdır. İş icazəsi verilən xaricilərin əsasən tikinti, mədənçıxarma və sənayesi sahələrində işləməsi planlaşdırılmışdır. 2019-cu ildə ölkəmizdə iş icazəsi verilənlər içərisində Türkiyə, Hindistan, Rusiya, Böyük Britaniya və İran vətəndaşları üstünlük təşkil etmişdir. 2019-cu il üçün əmək miqrasiyası kvotası ötən illə müqayisədə 6,6 faiz azalaraq 6,815 nəfər təsdiq edilmişdir.

2020-ci ildə müvafiq kvota 2019-cu illə müqayisədə 1,1 faiz azalaraq 6740 nəfər təyin olunmuşdur . 2014-cu illə müqayisədə isə 5260 nəfər daha az xarici işçi qüvvəsinə ehtiyac olmuşdur (https://www.sosial.gov.az/uploads/yhs.pdf ).

Ölkəmizdə miqrasiya prosesləri ilə əlaqəli durumun xülasəsini verərkən qeyd etməliyik ki, iqtisadi zəifləmə (neft sektorundan daxil olan gəlirlərin azalması, dövlət investisiyalarının payını aşağı salmaq məqsədi ilə açılan iş yerlərinin həcminin nisbətən azalması) həm də ölkə vətəndaşlarının işlə təmin olunması səbəbindən xarici işçilər üçün əmək kvotasının həcmində azalma prosesi qeydə alınır.

Qeyd etdiyimiz kimi əmək miqrasiyası miqrantların mənşə ölkələrinə müxtəlif formada təsir edərək əsasən işçi qüvvəsinin azalması, həmçinin miqrantlarların öz ailə üzvlərinə pul köçürmələrinin göndərilməsilə nəticələnir. Xaricdən pul köçürmələrini və onun iqtisadiyyatımıza təsiri daha dərindən təhlil edək.

Miqrantlar pul köçürmələrini əsasən öz ölkələrində qalmış ailə və qohumlarına göndərirlər və bu prosesdə ailə gəlirlərinin artmasına müsbət təsir edir. Pul köçürmələri prosesində hər zaman 3 tərəf iştirak edir: pulu göndərən, pulu qəbul edən və pulu ötürən tərəf. Pulu ötürən tərəf apardığı xidmət müqabilində müəyyən qədər haq alır.

Pul köçürmələrinin əmələ gətirdiyi iqtisadi təsirlər və müsbət nəticələri aşağıdakıda qeyd olunanlardır :

- əhalinin sərəncamında qalan gəlirlərinin yüksəlməsi;
- istehlakın yüksəlməsi;
- ümumi daxili məhsulun həcminin qalxması;
- yoxsulluq səviyyəsinin aşağı düşməsi;
- əmanət və depozitlərin çoxalması və bank xidmətlərinin inkişafı;
- bazarda tələbin yüksəlməsi səbəbindən istehsalın da çoxalması;
- əsasən kiçik müəssisələrdə investisiya qoyuluşunun yüksəlməsi, kiçik və orta biznesin payının çoxalması;
- büdcəyə daxil olan pul həcminin çoxalması; (Хасанова.С., 2017)

Aparılmış bütün araşdırmalara əsasən qeyd edə bilərik ki, pul köçürmələri ölkənin yoxsulluq səviyyəsinin aşağı düşməsində mühüm rola malikdir və bu proses hər zaman bu cür olacaqdır. Dünya Bankının apardığı hesablamalara görə deyə bilərik ki, pul daxilolmalarına görə son istehlakın 1 faiz yüksəlməsi, ÜDM-un həcmini 0,37 faiz çoxaldır.

Ölkəmizə daxil olan və ölkəmizdən çıxan pul vəsaitlərinin həcminə nəzər yetirərək iqtisadi faydanı təhlil edə bilərik. Aşağıdakı diaqramda ölkəmizə daxil olan və ölkəmizdən çıxan pul vəsaitlərinin həcmi qeyd olunmuşdur.

**Diaqram 2 : 2015-2020 ci illərdə Azərbaycan Respublikasında miqrantların pul köçürmələrinin həcmi ( daxil olmalar və çıxan) mln dollar**




**Mənbə:** Dünya Bankının məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır, https://www.worldbank.org/en/topic/migrationremittancesdiasporaissues/brief/migration-remittances-data

Diaqrama əsasən qeyd etmək olar ki, Azərbaycan Respublikasından göndərilən pul kütləsinin həcmi ölkəyə daxil olan pul kütləsinin həcmindən 2015ci- ildə 23 milyon $ , 2016-cı ildə 97 milyon $ çox olsada, 2017-ci ildə 530 milyon $ , 2018-ci ildə 646 milyon $, 2019-cu ildə 653milyon $, 2020-ci ildə isə 414 milyon $ az olmuşdur.

Əlavə olaraq qeyd etmək lazımdır ki, 2020-ci ildə ölkəmizə daxil olan pul kütləsinin həcmi ÜDM-un 2.8 % -ni təşkil etmişdir. Dünya bankının məlumatlarına əsasən bu göstərici əvvəlki illərlə müqayisədə demek olar ki eynidir.Azərbaycan Respublikasından 2020-ci ildə xarici ölkələrə köçürülən pul vəsaitlərinin həcmi isə ÜDM-un 1.7 % -ni təşkil edir.

2011- ci ilin rəsmi statistikalarında qeyd olunur ki, Azərbaycanda pul daxil olmaları kənd yerlərində ailə gəlirinin 2,8 faizini, şəhər yerlərində isə 2,7 faizini təşkil edir. Lakin dünya bankının iqtisadi tədqiqatlarında qeyd olunur ki, pul köçürmələri ailə gəlirinin təqribən 27 faizin təşkil edir. Eyni zamanda qeyd etmək

olar ki, tədqiqatlara əsasən pul köçürmələrini qəbul edənlərin 60 faizi işsizlər, 53 faizi isə qadınlardır (http://iom.az/publications/files/behind_2013_AZE.pdf ).

Ölkəmizə daxil olan pul köçürmələrinin çox hissəsi Rusiyaya mənsubdur. Azərbaycanlı əmək miqrantlarının uzun illərlə üz tutduğu əsas istiqamət Rusiya Federasiyasının əmək bazarı olmuşdur. Bu səbəbdən Rusiyada yayayıb və işləyən ölkə vətəndaşlarımızın gəlirlərində azalma baş verdiyi üçün onların ölkəmizə köçürdüyü pul kütləsinin səviyyəsi də xeyli şəkildə azalmışdır. Ölkəmizin daxili valyutasının ilk devalvasiyasiyasından sonra pul köçürmələrinin səviyyəsi təqribi 50% aşağı düşmüşdür. Əlavə olaraq qeyd etməliyik ki, böhran səbəbindən soydaşlarımızın bir qədəri ölkəmizə geri qayıdırlar. Ötən illərlə müqayisədə ölkəmizə Avropa dövlətlərindən pul daxilolmalarında azalma müşahidə olunur . Hətta ölkəmizdən Avropa ölkələrinə göndərilən pul kütləsinin həcmi xeyli çoxalmışdır.

Rusiyadan başqa xeyli sayda vətəndaşlarımız Qazaxıstan, Ukrayna, Türkiyə, və Özbəkistanda işləyirlər. Ölkəmizə geri dönən miqrantlar topladıqları vəsaitlərini artırmaq üçün ölkəmizdə yeni iş yerləri açmağa yaxud biznesə qurmağa çalışırlar. Əlavə olaraq qeyd edək ki, pul köçürmələrinin ümumi həcminin ölkəmizdə istehsal olunmuş ÜDM-da payı azdır və sonrakı illər ərzində pul köçürmələri azalsa belə bir çox ölkələrdən fərqli olaraq, iqtisadiyyatımıza mühüm ziyanı olmayacaqdır.

## 2.3. Azərbaycanda əmək miqrasiyası proseslərinin oxşar iqtisadiyyatlı ölkələrlə müqayisəli təhlili

Azərbaycan Respublikasının miqrasiya proseslərinin oxsar iqtisadiyyatlı ölkələrlə müqayisəli təhlilini apararkən müvafiq ölkələrin miqrasiya proseslərində iştirak edən miqrantların sayı, miqrantların xarici və daxili pul köçürmələri , pul köçürmələrinin UDM-a təsiri və s. məsələlər araşdırılmalıdır.

Keçmiş SSRİ ölkələrində beynəlxalq miqrantların umumi sayını təhlil edək (Cədvəl 7).

**Cədvəl 7: 2020-ci ildə bəzi keçmiş SSRİ ölkələrində beynəlxalq miqrantların ümumi sayı (min nəfər)**

| | Ölkələr | Miqrant sayı |
|---|---|---|
| 1 | Rusiya | 11600 |
| 2 | Ukrayna | 5000 |
| 3 | Qazaxıstan | 3700 |
| 4 | Özbəkistan | 1200 |
| 5 | Belarus | 1100 |
| 6 | Tacikistan | 276 |
| 7 | Azərbaycan | 252.2 |
| 8 | Latviya | 239 |
| 9 | Türkmənistan | 194.9 |
| 10 | Ermənistan | 190.3 |
| 11 | Gürcüstan | 79.4 |

**Mənbə:** https://migrationdataportal.org/data?i=stock_abs_&t=2020&cm49=31

Cədvəlin məlumatlarına əsasən qeyd edə bilərik ki, Rusiya əvvəlki illərdəki kimi miqrantların ümumi sayının çoxluğuna görə ilk pillələrdədir.Eyni zamanda miqrantların say çoxluğuna görə Ukrayna, Qazaxıstan, Özbəkistan və Belarus seçilir.

Miqrantların nisbətən az olduğu ölkələrə isə Türkmənistan, Ermənistan və Gürcüstanı aid etmək olar.

Beynəlxalq miqrantların sayını ölkələr üzrə müqayisə edərkən, ölkələr arasında əhali sayının fərqli olduğunu nəzərə alsaq,miqrantların ölkə əhalisindəki payına görə də təhlil etsək daha məqsədəuyğun olar.(Cədvəl 8)

**Cədvəl 8: 2000-2020-ci illərdə ölkələr üzrə miqrantların ölkə əhalisindəki nisbəti ( %-lə )**

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 4 | 3.5 | 3.1 | 2.7 | 2.5 |
| Gürcüstan | 1.7 | 1.7 | 1.8 | 1.9 | 2 |
| Ermənistan | 21.4 | 15.7 | 7.3 | 6.5 | 6.4 |
| Qazaxıstan | 19.3 | 20.1 | 20.5 | 20.2 | 19.9 |
| Türkmənistan | 4.9 | 4.5 | 3.9 | 3.5 | 3.2 |
| Tacikistan | 4.8 | 4.1 | 3.7 | 3.3 | 2.9 |
| Özbəkistan | 5.7 | 5 | 4.3 | 3.8 | 3.5 |
| Rusiya | 8.1 | 8.1 | 7.8 | 8 | 8 |
| Belarus | 11.4 | 11.6 | 11.6 | 11.5 | 11.3 |
| Ukrayna | 11.3 | 10.8 | 10.5 | 10.9 | 11.4 |
| Latviya | 18 | 16.7 | 14.8 | 13.3 | 12.7 |

**Mənbə:** https://migrationdataportal.org/data?i=stock_abs_&t=2020&cm49=31

Cədvəlin məlumatlarına əsasən məlum olur ki, miqrantların sayının əhali sayına nisbətində seçilən ölkələr əsasən : Qazaxıstan, Latviya, Ukrayna, Belarus və Rusiyadır. Başqa sözlə desək bu ölkələrdə miqrasiya prosesləri əhali formalaşmasında mühim rol oynayır. Eyni zamanda ölkə iqtisadiyyatda , istehsal və istehlakın artması, pul dövriyyəsinin sürətlənməsi və s. kimi müsbət təsirlərini verir.

Miqrantların əhali nisbətinə görə seçilən ölkələrdən yalnız Latviyada bu nisbət azalmağa doğru gedir. Bunun səbəbi isə ölkədəki sosial-iqtisadi vəziyyət yaxud ölkənin miqrasiya sahəsində apardığı siyasətdir.

Azərbaycan Respublikasında 2020-ci il üzrə miqrantların əhaliyə görə nisbəti 2.5 faizdir. Əvvəli illərlə müqayisədə bu nisbətdə azalma müşahidə olunur. Azərbaycanla yanaşı müvafiq proses Özbəkistan, Türkmənistan, Tacikistan və Ermənistanda da gedir. Ermənistanda əvvəliki illərə nəzərən miqrantların əhaliyə nisbət faizindəki azalmalar daha kəskin şəkildə özünü biruzə verir. Bu isə ölkə iqtisadiyyatındakı vəziyyətlə əlaqədardır.

Gürcüstan Respublikasında isə miqrantların əhaliyə faiz nisbətində əvvəli illərlə müqayisədə artım müşahidə olunur. Bu isə ölkədəki turizmin inkişafı , soaial iqtisadi vəziyyət və coğrafi yerləşmə ilə əlaqədardır.

Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi miqrasiyanın iqtisadiyyata təsir edən əsas göstəricilərinə pul köçürmələri aiddir. Beynəlxalq əmək fəaliyyətində iştirak edənlərin qazanclarının bir hissəsini doğma ölkələrinə davamlı olaraq göndərmələri, beynəlxalq pul köçürmələrinin ümumi həcmini davamlı artırır və mühüm beynəlxalq maliyyə axını formalaşdırır. Xarici pul daxilolmalarının zəif inkişaf etmiş ölkələrin ÜDM–na müsbət təsiri böyükdür. Məsələn : ÜDM-da pul daxilolmalarının çəkisinə görə Türkmənistan və Qırğızıstan dünyada liderdir.

Bəzi keçmiş SSRİ ölkələri arasında pul köçürmələrinin həcmini müqayisə etsək kəskin fərqlərin olduğunu görərik.( Cədvəl 9)

**Cədvəl 9:Keçmiş SSRİ ölkələrində miqrasiya hesabına daxil olan pul köçürmələri milyon $**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 1 270 | 643 | 1 133 | 1 226 | 1 275 | 1 146 |
| Gürcüstan | 1 459 | 1 521 | 1 794 | 2 034 | 2 258 | 1 926 |
| Ermənistan | 1 491 | 1 382 | 1 539 | 1 488 | 1 528 | 1 143 |
| Qazaxıstan | 294 | 384 | 560 | 618 | 506 | 458 |
| Tacikistan | 2 259 | 1 867 | 2 237 | 2 183 | 2 322 | 2 066 |
| Özbəkistan | 3 062 | 2 462 | 3 374 | 3 689 | 4 150 | 3 320 |
| Rusiya | 6 903 | 6 689 | 8 235 | 9 287 | 10 432 | 8 782 |
| Belarus | 932 | 977 | 1 254 | 1 446 | 1 419 | 1 312 |
| Ukrayna | 8 474 | 9 472 | 12 132 | 14 694 | 15 788 | 13 736 |
| Latviya | 1 336 | 1 235 | 1 274 | 1 237 | 1 143 | 1 076 |
| Qırğızıstan | 1688 | 1995 | 2486 | 2689 | 2411 | 1875 |

**Mənbə:** Dünya bankı
https://www.worldbank.org/en/topic/migrationremittancesdiasporaissues/brief/migration-remittances-data

Cədvələ əsasən qeyd etmək olar ki, müqayisə apardığımız ölkələr arasında miqrantların pul köçürmələrinə (daxilolmalar) görə Ukrayna birinci yerdə durur. Son

beş il ərzində pul köçürmələrində qeydə alınmış məbləğ isə 2019-cu ildə 15788 milyon dollar olmuşdur. 2020-ci ildə isə bu məbləğ 2052 milyon dollar azalaraq 13736 dollar olmuşdur. İkinci sırada isə Rusiya olmuşdur. Burada da ən yüksək məbləğ 2019-cu ildə qeydə alınmışdır: 10432 milyon dollar.

Ölkəmiz isə keçmiş SSRİ ölkələri arasında pul köçürmələrinə görə orta mövqe tutur. Son beş ildə pul köçürmələrində ən yüksək göstərici 1275 milyon dollar olmaqla 2019-cu ildə qeydə alınmışdır. 2020-ci ildə isə 125 milyon dollar azalaraq 1146 milyon dollar olmuşdur. Son beş ildə xarici miqrantlar hesabına ölkəyə pul daxil olmalarında Gürcüstan, Tacikistan, Özbəkistan və Belarus ölkəmizdən yuxarı pillədədir.Ermənistanla müqayisədə isə 2020-ci ildə ölkəmizə nisbətən daha çox pul vəsaitləri daxil olmuşdur.

Miqrantlar hesabına ölkəyə pul daxilolmalarının əvvəlki illər üzrə azalma tendensiyası əsasən Latviyada nəzərə çarpır.2015-ci ildə ölkəyə 1336 milyon dollar daxil olmuşdusa, 2020-ci ildə bu məbləğ 1076 milyon dollar olmuşdur. İllər üzrə azalma orta hesabla 52 milyon dollardır.

Müqayisə apardığımız ölkələr arasında xaricdən pul daxilolmalarına görə ən aşağı göstərici isə Qazaxıstanda qeydə alınmışdır. 2020-ci ildə pul daxilolmalarında bu məbləğ 458 milyon dollar olmuşdur.

Bildiyimiz kimi miqrantlar hesabına ölkəyə daxil olan pul köçürmələri ölkənin iqtisadi inkişafına təkan verir və mühim rol oynayır. Bundan başqa qeyd etmək lazımdır ki, pul köçürmələrinin ayrı-ayrı ölkələr üzrə iqtisadiyyatda rolunu göstərən göstəricilərdən əsası ÜDM-un formalaşmasıdır. Başqa sözlə desək pul köçürmələrinin ölkənin ÜDM-da payının nisbətidir.

Ölkəmiz ilə oxşar iqtisadiyyatlı ölkələri bu göstəciriyə görə də müqayisə aparsaq, miqrasiya proseslərinin ölkə iqtisadiyyatındakı rolunu daha dəqiq təhlil etmiş olarıq. Aşağıdakı diaqramda keçmiş SSRİ ölkələri üzrə pul daxilolmalarının ÜDM-da faizi qeyd olunmuşdur.

**Diaqram 3: 2020-ci ildə bəzi ölkələrə daxil olan pul köçürmələrinin ÜDM-da payı (% -lə)**




**Mənbə:** BVF-nun məlumatlarına əsasən müəllif tərəfindən tərtib olunmuşdur. https://www.worldbank.org/en/topic/migrationremittancesdiasporaissues/brief/migration-remittances-data

Diaqramın məlumatlarına əsasən deyə bilərik ki, miqrantların öz ölkələrinə göndərdiyi pul vəsaitlərinin ÜDM-da payına görə ən yüksək göstəricilər Tacikistan və Qırğızıstana mənsubdur. Belə ki, 2020-ci ilin statistik məlumatlarına əsasən, Tacikistanda miqrantların göndərdiyi pul daxilolmaları ÜDM-un 26,2 faizini , Qırğızıstanda isə 25,1 faizini təşkil edir. Bu isə o deməkdir ki, miqrasiya prosesləri ölkənin iqtisadiyyatına əhəmiyyətli dərəcədə müsbət təsir edir. BVF-nun əvvəlki illərin məlumatlarına əsasən demək olar ki, 2016 və 2017-ci illərdə ölkənin ÜDM-da xaricdən pul daxilolmalarının payına görə Qırğızıstan dünyada birinci yerdə olmuşdur. Növbəti illərdə isə bu göstəricidə Tacikistan önə keçmişdir (https://www.knomad.org/sites/default/files/2019-04/Migrationanddevelopmentbrief31.pdf ).

Müqayisə apardığımız ölkələr arasında müvafiq göstəriciyə görə növbəti yerlərdə Gürcüstan, Ukrayna, Ermənistan və Özbəkistan dayanır. Gürcüstanda bu göstərici 11,8 faiz, Ukraynada 9,5 faiz, Ermənistanda 8,9 faiz və Özbəkistanda 5,6 faiz olmuşdur. 2000-ci ilin məlumatlarına əsasən deyə bilərik ki, Gürcüstanda daxil

olan pul vəsaitləri 2000-ci ildə ÜDM-un 6 faizini təşkil etmiş, 2010-cu ildə bu göstərici 11 faizə yüksəlmiş ,2020-ci ildə isə 11,8 faiz olmuşdur. Ermənistanda isə bu göstəricilər həmin müddətdə 10 faizdən 13 faizə artmış, 2020-ci ildə isə azalaraq 8,9 faiz olmuşdur. Bu isə onu deməyə əsas verirki son 10 ildə Ermənistanda pul köçürmələrinin ÜDM-dakı payı azalmağa doğru getmişdir.

Keçmiş SSRİ ölkəri arasında miqrantların pul köçürmələrinin ÜDM-dakı payının çox azlığına görə seçilən ölkələr isə Qazaxıstan və Türkmənistandır. Belə ki bu göstərici 2020-ci ildə Qazaxıstanda 0,3 faiz, Türkmənistanda isə 0,1 faiz olmuşdur. Bu isə onu deməyə əsas verir ki, xaricdən daxil olan pul köçürmələri bu ölkələrin iqtisadiyyatına çox az təsir edir.

Müqayisə apardığımız ölkələr arasında müvafiq göstəricilər Latviya, Azərbaycan və Belarusda demək olar ki, yaxındır. Latviyada bu göstərici 3,3 faiz, Azərbaycanda 2,8 faiz və Belarusda 2,3 faiz olmuşdur.Ölkəmizdə miqrantların ölkəyə köçürdüyü pul vəsaitlərinin ÜDM-dakı faiz nisbəti, çox az hissəni təşkil edir. Əlavə olaraq qeyd etmək lazımdır ki, sözügedən göstərici ölkəmizdə 2000-ci ildə 5 faiz, 2010-cu ildə 3 faiz , 2020-ci ildə isə 2,8 faiz olmuşdur.

Yekun olaraq qeyd etməliyik ki , Azərbaycan Respublikasını qonşu ölkələrlə müqayisə apardıqda miqrantların ümumi sayına görə ölkəmiz əsasən aşağı sıralarda dayanır. Beynəlxalq miqrantların ölkə əhalisinə nisbətində isə ölkəmiz əsasən Özbəkistan, Tacikistan və Gürcüstanla demək olar ki, eyni səviyyədədir. Pul köçürmələrində isə ölkəmiz Ermənistandan yüksək, digər qonşu ölkələrdən isə bir qədər fərqlə az olmuşdur.

# III FƏSİL. ÖLKƏNİN SOSİAL İNKİŞAFINDA ƏMƏK MİQRASİYASININ ROLUNUN YÜKSƏLDİLMƏSİ YOLLARI

## 3.1. Əmək miqrasiyasının tənzimlənməsi mexanizmləri

Müasir zamanda Azərbaycan yerli suveren dövlət olaraq dünyaya inteqrasiya olmuş və dünyəvi enerji proqramlarının baş tutduğu tranzi məkanda yerləşir. Ölkəmiz müstəqillik qazandıqdan sonra çoxda uzun olmayan dövrdə iqtisadi-sosial inkişafın yüksək nöqtəsinə çatmışdır. Bütün bu proseslərdə öz növbəsində miqrasiya proseslərini mühüm məsələyə çevirmişdir. Bununla yanaşı miqrasiyanın tənzim olunması aktual məsələ olmuşdur.

Miqrasiyanın idarə olunmasının vacib istiqamətləri aşağıda qeyd olunanlardır :

1.Miqrasiyanın tənzim edilməsinin inkişaf istiqaməti. Bu istiqamət, miqrasiya proseslərinin inkişafının dövlət , əhali və eyni zamanda müxtəlif vətəndaşların marağına görə səmərəli yararlanmağa kömək olur.

2. Miqrasiyaya dəstək olunması. Bu istiqamət, miqrantların dövlətlərarası azad gediş gəlişi zamanı qısa vaxt itirməsini və lazımi sənədlərə uyğun şəkildə təhlükəsiz və problemsiz hərəkətini təmin etməyə yardımçı olur.

3. Miqrasiyanın tənzim olunması. Bu istiqamət , dövlətə ölkə daxilinə kimlərin hərəkət etdiyi barədə xəbərli olmağı, qanunsuz daxil olanların qarşısını almağa kömək olur.

4.Məcburi miqrasiyanın tənzimlənməsi. Bu istiqamət, vətandaşları yaşayış üçün təhlükəli olan və fövqəladə hallarla əlaqəli öz yerlərindən ayrı düşənlərə kömək olmağa və onların öz yaşayış məkanına geri dönməsinə kömək olur. (Abdullayev F., 2009)

Miqrasiyanın idarə edilməsinin vacib alətlərinə qanunvericiliyi, dövlət siyasətini və müvafiq insitut və qurumları aid edə bilərik. Siyasət hər bir dövlətin yuxarı səviyyədə davranışını və strategiyasını təyin edir. Dövlətin miqrasiyanın

tənzim edilməsi üçün çərçivə və sərhədlərini qanunvericilik təyin edir, miqrasiya siyasətinin təcrübi forması olaraq çıxış edir. İnzibati qurum və təşkilatlar isə miqrasiyanın tənzim edilməsi ilə əlaqəli fərqli funksiyaları operativ və məsuliyyətli şəkildə həyata keçirir.

Dövlətin daxili və xarici miqrasiyanın tənzimlənməsi zamanı əsas tutduğu mühüm prinsipləri toplusu miqrasiya siyasəti formasında göstərilir. Müasir zamanda heç bir dövlət planlaşdırılmış miqrasiya siyasətini yaratmadan daxili və xarici təhlükəsizliyini, əhali və əmək ehtiyatlarının səmərəli balansını, dayanıqlı sosial - iqtisadi inkişafını, firavanlığını etibarlı şəkildə formalaşdıra bilməz. Səmərəli miqrasiya siyasəti əsas məqsədlərinə, düzgün vəzifə və doğru funksiyalarına və bu siyasəti qiymətləndirmə göstəricilərinə əsaslanır. Qeyd etdiklərimizin hər biri elmi, nəzəri və praktiki cəhətdən yüksək səmərəli hazırlanmış miqrasiya konsepsiyası, müvafiq idarəetmə layihə və proqramların düzgün təməlləri üzərində qurulur.

Miqrasiya siyasətinin formalaşdırılması müəyyən mərhələdə, müəyyən dövlətdə sosial - iqtisadi məsələlərin hansı həlli alətlərinə önəm verməsindən asılıdır . Ölkənin inkişaf dərəcəsi nə qədər yüksək və eyni zamanda mürəkkəb məzmunludursa, miqrasiya siyasətinin həll alətləri və mexanizmləri də onu qədər əhatəli və çox parametrli olmalıdır.

Miqrasiya siyasətinin formalaşdırılması, artıq məlum olduğu kimi bir neçə ardıcıl mərhələlərdən ötməli olur.

**Birinci mərhələdə,** miqrasiya siyasətinin əsas hansı məqsəd uğruna yaradılması aydınlaşır . İlk olaraq həll edilməsi gərəkən prioritet istiqamətlər ümumi şəkildə müəyyən olunur və miqrasiya strategiyası tərtib olunur ;

**İkincisi mərhələdə**, miqrasiya siyasətinin icra edilməsini təmin edən meyarlar müəyyənləşdirilir ;

**Üçüncü mərhələdə**, müvafiq siyasətin məqsəd və vəzifələrinin həyata keçirilməsini göstərən layihələr, sənədlər , konsepsiya və müxtəlif vasitələr hazırlanır . Onların baş tutması mexanizmləri qeyd olunur ;

**Dördüncü mərhələdə**, sözügedən siyasətinin institutisonal forması, administrativ təşkilatları və orqanlarının formalaşdırılması ilə əlaqəli məsələlər həll olunur;

**Beşinci** və eyni zamanda sonuncu mərhələdə isə miqrasiyanın tənzim olunmasının qanunvericilik bazasının qurulması ilə səciyyələnir. Ancaq qeyd etməliyik ki , müvafiq qanunvericilikdə boşluğun yaranmaması üçün bəzi vaxtlarda bu mərhələlər qabaq sıraya keçə bilər. (Muradov Ş.M.,2004)

Uzunmüddətli dövrdə dövlətin miqrasiya siyasətində qeyd olunduğu kimi, ölkədə bu siyasətin əsas vəzifələri miqrasiya axınlarının idarə olunması , problemlərə gətirib çıxaran miqrasiya proseslərinin neqativ təsirlərinin minimuma endirilməsi, fövqəladə səviyyədə xeylisayda miqrasiyaya səbəb olan amillərin aşkar edilməsi, dəyərləndirilməsi və bunların aradan qaldırılması üçün önləyici tədbirlər kompleksinin yaradılması, miqrasiya iştirakçılarının öz hüquqlarının rahat müdafiə olunması məqsədilə lazımi mühitin yaradılması və eyni zamanda ölkədə sığınacaq axtaran fərdlərə humanist davranış göstərilməsi istiqamətləridir.

Konsepsiyada eyni zamanda qeyd olunur ki, dövlət miqrasiya siyasətinin əsas məsələləri aşağıda qeyd olunanlardan ibarətdir:

-miqrasiya proseslərində iştirak edənlərin hüquq və müstəqilliklərinin beynəlxalq qayda və dövlət qanunvericiliyinə uyğun şəkildə müdafiəsini təşkil edərək müvafiq qanunvericiliyin daha da təkmilləşdirilməsi və yeni istiqamətlərinin formalaşdırılması;

-ölkədə qaçqın və məcburi köçkünlərin iqtisadi-sosial problemlərinin operativ şəkildə həllinə istiqamətlənmiş tədbirlərin növbəli formada icra edilməsi;

-yarana biləcək fövqəladə vəziyyətlər üçün alternativ fəaliyyət proqramlarının yaradılması;

-miqrasiya məsələlərində yeni nəzarət aparatının və vahid informasiya şəbəkəsinin formalaşdırılması;

-ölkədən yüksək ixtisaslı və potensial biliyə malik şəxslərin çıxışını ehtiva edən "beyin axınının" qabağının alınmasına yönələn dövlət tədbirlərinin icra olunması;

-daxili əmək bazarının qanunsuz əmək miqrantlarından təsirindən qorunması;

-ölkənin əmək miqrasiyası kvotasının təyinləşdirilməsi;

-turizm miqrasiyanın səviyyəsinin yüksəldilməsi;

-emiqrantların yerli icma və diasporaları ilə mütəmadi ünsiyyətinin təmin olunması;

-qeyri-leqal miqrasiyaların qarşısının alınması və qabaqlayıcı tədbirlər sisteminin yaradılması (Muradov Ş.M. 2004).

Danılmaz faktdır ki, hər bir dövlətin yerli təhlükəsizlik konsepsiyası həmin dövlətin yerləşdiyi coğrafi mövqedən, beynəlxalq əlaqələr sistemində tutduğu yerdən, əmək, təbii və digər resurslardan, elmi-texnoloji potensialından asılı şəkildə fərqli məqsədlər əsasında əmələ gəlir. Müasir qloballaşma məsələləri bütün özünəxas cəhətləri ilə, ölkələrin yerli təhlükəsizliyi istiqamətdən daxili və xarici miqrasiya proseslərinin də operativ alətlər əsasında idarə olunmasını mühüm məsələlərdən birinə çevirmişdir.

Yüksək inkişaf edən hegemon dövlətlər ilə zəif inkişafa sahib dövlətlərin əhalisinin həyat səviyyəsi arasında yaşanan böyük fərqlər miqrasiya proseslərini əmələ gətirən vacib səbəblərdən hesab olunur. Doğma ölkələrində lazımi maddi tələbatlarını ödəyə bilməyən əhali yüksək məbləğli işə sahib olmaq üçün qanuni, və ya qeyri-qanuni yollarla iqtisadi cəhətdən yüksək inkişaf etmiş ölkələrə üz tutmağa cəhd edirlər.

Bununla bərabər, siyasi, mədəni,irqi və digər münaqişələrdən, gözlənilməyən fövqəladə durumlardan və təbii proseslərdən yaranan proseslər də əhalinin bir yerdən başqa yerə kütləvi formada miqrasiya etməsinə səbəb olur. Problemli durum onunla əlaqəlidir ki, insanlar yalnız qanuni deyil, eyni zamanda qeyri-qanuni yollarla miqrasiya etməyə cəhd göstərirlər. Başqa sözlə desək hər hansı dövlətə qanun yolu ilə daxil olaraq orada yaşamaq və işləmək icazəsi almadan mövcud qanunları və

beynəlxalq normaları pis formada pozaraq, daxili əmək bazarında gərginlik yaradırlar.

Qloballaşmanın yaratdığı qeyri-qanuni miqrasiya məsələləri ölkələrin milli təhlükəsizliyi üçün açıq şəkildə problemlər yaradır. Qanunsuz miqrasiya edənlər arasında çox vaxt müxtəlif cinayətlər səbəbindən hüquq-mühafizə qurumlarının axtardığı cinayətkarların olması yaşanan problemləri daha da ağırlaşdırır. Elə bu səbəbdən də, hər bir ölkə həm yerli təhlükəsizliyin qorunması həmdə yerli əmək bazarının mənfi təsirlərdən qorumaq baxımından qeyri-leqal miqrasiyanın qarşısını almağa cəhd göstərir və bu prosesin lazımi alətlər əsasında tənzimlənməsini həyata keçirir.

Hər bir dövlətin miqrasiya siyasəti kompleks formada :

1. demokratik cəmiyyətin yaranmasına və şəxsin hüquqlarının mudafiə olunmasına ;
2. beynəlxalq iqtisadi əlaqələrin təkmilləşdirilməsi və inkişaf olunmasına;
3. ölkənin daxili təhlükəsizliyinin qorunmasına , ola biləcək risklərin ləngidilməsi və ya həll edilməsinə ;
4. ölkənin xarici əmək bazarına , qloballaşan iqtisadi dünyaya inteqrasiya etməsinə yönəlmişdir (Mehrəliyev E.,1991).

Səmərəli miqrasiya siyasətini icra etmək üçün aşağıdakı meyarların nəzərə alınması vacibdir :

1. Daxili miqrasiya istiqamətləri , ölkənin müxtəlif yerlərdə miqrasiya həcminin monitorinqi , ölkədə əmək resurslarına tələbin dəyərləndirilməsi , vəziyyətə uyğun olan miqrasiya mexanizmlərinin müəyyən olunması;
2 .Qonşu dövlətlərdən miqrasiya hərəkətinin dövlətlərarası müqavilələrlə , sosial - iqtisadi durum nəzərə alınmaqla idarə edilməsi;
3. Uzaq dövlətlərdən gələn miqrantların statistik uçotunun təşkil olunması , onların tərk etdiyi ölkələrlə əlaqələrinin məzmununu nəzərə almaqla iqtisadi, siyasi və ideoloji xarakterinin ümumi təhlilinin aparılması.

Ölkənin miqrasiya siyasətinin uğurlu icra olunmasına təsir edən başqa amillər də vardır. Bunlara: 1 ) əhali axınlarının regional xüsusiyyətləri: sosial və demoqrafik faktorların, miqrant qəbul edən cəmiyyətin etnoloji tərkibi; 2) dövlətin sosial - iqtisadi səviyyəsi, ictimai fəaliyyətin strukturu , siyasi inkişaf dərəcəsi, tarixi mentaliteti, təbii - ekoloji faktorları, və s. 3) miqrantların gəldiyi dövlətin əhatəsi və sosial mühiti, miqrantların cəmiyyətə inteqrasiya fürsətləri, yerli insanların tolerantlıq səviyyəsi, xaricilərə qarşı dözümlülük göstərmələri, birgəyaşayış vəziyyətini müsbət və neqativ meyarları da vacib təsir edir.

Müstəqil dövlətin uğurlu miqrasiya siyasətinin icra olunması yollarından biri də bu istiqamətdə beynəlxalq əməkdaşlığın baş tutmasıdır. Miqrasiya siyasətinin yerli dövlət sərhədlərini keçərək beynəlxalq səviyyədə tənzimlənməsinə ehtiyac birdən birə yaranmamışdır. Bütün proseslər kimi, miqrasiya məsələləri də bir çox tarixi və siyasi mərhələlərlə təkamül etmişdir. Eyni zamanda bunu vacib edən beynəlxalq reallığın yaranması gərəkmişdir.

Beləliklə istər regional istərsə də dünyavi dərəcədə miqrasiyanın idarə olunmasının beynəlxalq alətlərinin, ölkələrin bu istiqamətdə birgə fəaliyyətinin praktikaya dönməsini aşağıdakı qeyd olunnan amillər şərtləndirmişdi:

1. Məcburi miqrasiya edənlərin, qaçqın və köçkün kateqoriyalı şəxslərin sayının çoxalması, onlara yaşamaq üçün yer verilməsi və kökəklik edilməsi məsələlərində beynəlxalq siyasətin yaranmasının vacibliyi;

2.Qanunsuz miqrasiyanın xeyli çoxalaraq idarə olunmaz hal alması və kortəbii hərəkətə çevrilməsinin qabağının alınması üçün yerli və beynəlxalq normaların uyğunlaşdırılması;

3. Beynəlxalq əmək bazarında miqrasiyasının hərəkət istiqamətlərini idarə oluna bilən nizama salınması üçün ölkələrin cəhd və praktikasını ümumiləşdirmək;

4. Həm immiqrasiya, həm də emmiqrasiya ölkələri arasında birgə fəaliyyətin beynəlxalq qaydalara uyğun tənzimlənməsinin əhəmiyyətliliyi,

5. XX əsrin böyük uğuru sayılan insan hüquqlarının tərkibində miqrasiya edənlərin bir çox , hüquq və müstəqilliklərinin təmin olunması problemləri;
6. Avropa bazarında əmək qüvvəsinin rahat sirkulyasiyasını təşkil etmək üçün uyğun, beynəlxalq qurumların və hüquqi tənzimləmə vasitələrinin formalaşdırılması və s.

Müasir dövrdə miqrasiya siyasəti istiqamətində beynəlxalq əməkdaşlığın üç səviyyəsini fərqləndirmək olar: ümumdünya, dövlətlərarası və regional (Abdullayev F.,2009)

Ümumdünya həcmində miqrasiya siyasətini tənzimləyən beynəlxalq qurumların içərisində "Beynalxalq Miqrasiya Təşkilatı", "Beynəlxalq Əmək Təşkilatı", BMT və s. fərqlənir. Bu səviyyədə alınan qərarlar, qəbul edilən sənədlər və edilən tövsiyələr deyə bilərik ki, regional və yerli səviyyələrdə də fəaliyyət üçün əsas götürülür. BMT - nin dünyəvi tədbirləri burada mühüm yer tutur. Ona görə ki tədbirlər hökümət statusuna sahib olduğuna görə verilən qərarlar, qəbul edilən sənədlər yalnız tövsiyə xarakterli deyildir.

Miqrasiya siyasətini dünyəvi səviyyədə idarə edən beynəlxalq qurumlardan əlavə böyük regional təsisatlar da formalaşdırılmışdır və müvafiq prosesi icra edirlər. Bu təsisatlara böyük miqyasda siyasət aparmaq və demək olar ki, beynəlxalq mahiyyətli qərar və sənədlərin qəbul edilməsini icra edən Avropada formalaşdırılan təşkilatları: "Avropa İttifaqını" ( Aİ), ATƏT - i, "Avropa Şurasını" və s. xüsusi qeyd etmək gərəkdir. İstər tarixi cəhətdən istərsə də miqrasiyanın idarə olunmasında zəngin praktikası baxımından Avropa İttifaqı vacib əhəmiyyət kəsb edir.

Bütün yuxarıda qeyd etdiyimiz səbəblərdən "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti" müvafiq proseslərinin maksimum səmərəli şəkildə idarə olunması üçün lazımi beynəlxalq vasitələrdən istifadə edir, miqrasiya istiqamətində fəaliyyət aparan beynəlxalq qurumlarda və xarici ölkələrin müvafiq təşkilatları ilə qarşılıqlı və çoxtərəfli əsaslarda yoldaşlıq edir.

Azərbaycan Respublikası BMT-yə daxil olduqdan sonra təşkilatla ölkəmiz arasında olan əməkdaşlıq ilbəil daha da artmışdır. Tərəflər arasında miqrasiyanın

idarə olunması, miqrasiya istiqamətində aparılan elektron xidmətlərin daha da inkişaf etdirilməsi, uğurlu readmissiya prosesinin formalaşdırılması, əmək fəaliyyəti ilə bağlı informasiya sisteminin möhkəmləndirilməsi və başqa müvafiq maraq dairəsində olan məsələlərə görə davamlı şəkildə görüşlər baş tutur və danışıqlar aparılır.

Dövlətimiz ölkəmizdə yaşayan qaçqın və məcburi köçkün kateqoriyasından olan şəxslərin problemlərinin həll olunması naminə BMT QAK ilə mütəmadi əməkdaşlıq edir. Təşkilatın ölkəmizdəki nümayəndəliyi ilə müvafiq xidmət işçiləri arasında qaçqın və məcburi köçkün statusunun müəyyən olunması, onların cəmiyyətə uyğunlaşmasının təmin olunması, sığınacağa ehtiyacı olanların mənşə ölkələrinə öz isdəkləri ilə geri qaytarılması  və başqa maraq dairəsində olan məsələlərdə davamlı olaraq rəsmi görüşlər keçirilir və tədbirlər planlaşdırılır.

“Dövlət Miqrasiya Xidmətinin”  mütəmadi əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan olan MSİBM ilə ölkəmiz arasında 2006-cı ildə qarşılıqlı əməkdaşlıq sazişinin qüvvəyə minməsi sonra iki tərəf arasında münasibətlər daha da səmərəli və uğurlu oldu. Qeyd etdiyimiz qurum tərəfindən ölkəmizdə miqrasiya istiqamətində bir neçə proqramlar qəbul edilmiş ,layihələr baş tutmuşdur. Hazırda bu qurumla “Geri qayıdan Azərbaycan vətəndaşlarına reinteqrasiya dəstəyi (RESTART)” layihəsi səmərəli şəkildə həyata keçirilir, eyni zamanda yeni proqram və layihələrin hazırlanması məsələləri müzakirə olunur. (https://migration.gov.az/az/useful/4 )

## 3.2. Əmək miqrasiyasının tənzimlənməsi institutları

Miqrasiya proseslərinin idarə olunması məsələlərində dövlətin iki mühüm funksiyası fərqlənir:

Hüquqi funksiya– bura müvafiq qanun bazasının formalaşdırılması, qanunvericilik alətlərinin təkmilləşdirilməsi məsələləri aiddir. Bu proseslər hər zaman təkmilləşməni gərəkdirir və ictimai, beynəlxalq və digər münasibətlərin inkişafına zəmin yaradır.

Təşkilati funksiya–bura isə müvafiq qurum və təşkilatların formalaşdırılması və onların müvafiq prosesi idarə etməsi aiddir. Dövlətin miqrasiya istiqamətində fəaliyyətinin forma və meyarları aşağıdakı istiqamətlərini əhatə edir:

Hüquqi fəaliyyət üzrə:

-qanunvericilik və hüquqi fəaliyyəti həyata keçirir;

-qanunvericilik sənədləri və müvafiq aktlar hazırlanır;

-hüquqi müdafiə dövlət tərəfindən təmin olunur.

Təşkilati fəaliyyət üzrə:

-təşkilati fəaliyyətin məzmunu olaraq, dövlət miqrasiyanın statistik uçotunu aparır, bu istiqamətdə miqrasiya edənlərin hüquq və müstəqilliklərinin qorunması üçün gərəkli mühit yaradır, əhalinin hərəkət etmə məlumatlarını birləşdirir və statistik araşdırmalar aparır;

– ölkə vətəndaşlarının digər xarici ölkələrə getmək və azad hərəkət hüquqlarını təşkil və müdafiə edir;

–başqa xarici ölkələrdə yaşayan vətəndaşların hüquq və müstəqilliklərini müdafiə edir və onların getdiyi xarici ölkədə sosial həyatına dəstək üçün vasitəçilik edir;

– digər ölkə vətəndaşlarının və əcnəbilərin rahat və qanun çərçivəsində ölkəyə daxil olmasını və geri qayıtmasını təşkil edir. (Nəsibov E.M., 2014)

Miqrasiya prosesləri tarixən formalaşan, böyüyən və inkişaf edən xüsusiyyətə sahibdir. Bu istiqamətdə tarixi təcrübəyə sahib olan ölkələr də dəyişən proseslərə müvafiq siyasət yeritməyə, miqrasiyanın yeni meyarlarını mənimsəməyə və qarşılaşa

biləcəkləri problemlərin aradan qalxmasına nail olmaq üçün daha səmərəli layihə və proqramlar hazıryayıb təqdim edirlər. Bu baxımdan  deyə bilərik ki, ölkəmizdə miqrasiya siyasəti hələ yeni-yeni təkmilləşən fəaliyyətlərdəndir və müasir zamanda dünyada yaşanan ictimai-siyasi dəyişikliklər, elmi-texniki irəliləmə inkişaf etmiş ölkələrlə birgə, yeni inkişaf edən ölkələrdə də bu marağın yüksəlməsinə səbəb olur.

Azərbaycanda miqrasiya məsələlərinin idarə olunmasına dəstəkdə İlham Əliyev tərəfindən  2003-cü ilin 20 fevralda təsdiq olunmuş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" mühüm əhəmiyyətə malik olmuşdur. Müvafiq sənəddə planlaşdırılmış miqrasiya proqramının tərtib olunması səbəbi ilə Nazirlər Kabinetinin 2004-cü ildə qəbul etdiyi "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası" miqrasiya siyasətinin və miqrasiya edənlərin hüquq və müstəqilliklərinin  təmin edilməsi baxımından vacib əhəmiyyətli olmuşdur. Qəbul olunmuş konsepsiyada "Azərbaycan Respublikasında miqrasiya proseslərinin mövcud vəziyyəti" adlı birinci bölmədə başqa problemlərlə birgə, ölkəmizin xarici siyasətində mühüm mövzu olan Dağlıq Qarabağ probleminin yaratdığı fasadlar və zorakı şəkildə azərbaycanlıların yaşadıqları yurd-yuvalarından qovularaq məcburi formada miqrasiya olunmaları və daxili miqrasiya problemləri qeyd olunur. "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı"  ölkə başçısı İlham Əliyevin 2006-cı ilin 25 iyul tarixli müvafiq sərəncamı (№ 1575) ilə qəbul olunmuşdur. Həmin sənəddə qeyd olunur ki: dövlət proqramının qəbul edilməsində əsas məqsəd miqrasiya istiqamətində dövlət siyasətinin uğurlu icra olunması,miqrasiya proseslərinin idarəetmə mexanizmlərnin təkmilləşdirilməsi, miqrasiya məsələlərinin tənzim edilməsi və planlaşdırılması, bu istiqamətdə qanunvericilik bazasının beynəlxalq norma və tələblərə müvafiq şəkildə formalaşdırılması, qanunların icra edilməsinin səmərəliliyinin təşkil olunması, miqrasiya proseslərinin  vahid informasiya bazasının, dövrün tələblərinə cavab verən avtomatlaşdırılmış nəzarət xidmətinin, qanunsuz miqrasiyanın qabağının alınması,

miqrasiya edənlərlə əlaqəli sosial-müdafıə proqramlarının icra olunmasından ibarətdir (https://migration.gov.az/content/pdf/2b93b6d90ee16dbfa0e160c7e29ced48.pdf )

Dövlət başçımızın təsdiq edilən Dövlət Proqramı indiki zamanda ölkədə miqrasiya siyasətinin idarə olunmasının və qanunsuz miqrasiyanın qabağının alınması, miqrasiya prosesində iştirak edənlərin hüquqlarının təmin olunması baxımından mühüm baza kimi müsbət nəticələrlə səviyyələnir. Ölkəmizdə miqrasiya siyasətinin möhkəmləndirilməsi və dövlətin siyasi maraqlarının təmin olunması səbəbindən İlham Əliyevin 2007-ci ildə müvafiq fərmanı ilə "Dövlət Miqrasiya Xidməti" (DMX) yaradılmışdır .

Heydər Əliyevin təməlini qurduğu miqrasiya siyasəti onun davamçısı İlham Əliyevin ölkəyə başçılıq etdiyi indiki zaman qədər daha da təkmilləşdirilmiş və yüksək dərəcəyə qaldırılmış, bu istiqamətdə müasir mərhələyə qədəm qoymuşdur. "Dövlət Miqrasiya Xidməti" ölkədə qısa müddətdə olan, eyni zamanda müvəqqəti və daimi yaşayış üçün gələn xaricilərin Azərbaycan Respublikasının qanunvericilik norma və tələblərinə uyğun şəkildə hərəkət etmələrinə istiqamətlənmiş miqrasiya nəzarətini icra edir, müvafiq qanunvericiliyin norma və tələblərinə əməl etməyən xaricilərin ölkədən xaric edilməsi üçün lazımi addımlar atır. Miqrasiya proseslərində dövlət siyasətinin icra olunması, qanunvericilik bazasının beynəlxalq qaydalara və müasir zamanın tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi, qanunların icra olunmasında qarşıya çıxan nöqsan və sui–istifadə durumlarının, idarə olunmayan miqrasiya proseslərinin mənfi nəticələrinin həll olunması, Azərbaycan Respublikasının daxili və xarici təhlükəsizliyinin və davamlı iqtisadi-sosial inkişafının təmini "Dövlət Miqrasiya Xidmətinin" vacib vəzifələri sırasındadır. Qeyd etdiyimiz vəzifələr arasında eyni zamanda əmək ehtiyatlarından düzgün yararlanılması, ölkə ərazisində insanların balanslı formada yerləşdirilməsi, əmək miqrantlarının intellektual və xüsusi potensialından faydalanması, insan alveri də aid olmaqla, qanunsuz miqrasiyanın qabağının alınması və s. durur.

“Dövlət Miqrasiya Xidməti” iki tərəfli əsaslarla “Beynəlxalq Miqrasiya Təşkilatı” , “Avropa İttifaqı” , BMT-nin “Qaçqınlar üzrə Ali Komissarlığı” , “Müstəqil Dövlətlər Birliyi”, “Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz” , “Beynəlxalq Qızıl Xaç Komitəsi”, eyni zamanda qarşılıqlı əsasda Rusiya Federasiyası, Türkiyə Respublikası, Ukrayna, Almaniya Federativ Respublikası, Niderland Krallığı, Tacikistan Respublikası, və başqa dövlətlərlə leqal miqrasiya, miqrasiyanın səmərəli idarə olunması, readmissiya fəaliyyəti, könüllü geri qayıdış və miqrasiyada iştirak edənlərin hüquqi müdafiəsi istiqamətdə əməkdaşlıq münasibətlərini böyüdür, birgə proqramlar icra edir həm də miqrasiya sahəsində müasir və uğurlu praktikalara sahib olur. “Dövlət Miqrasiya Xidməti” Aİ-nin “Tvinninq və Texniki Yardım və Məlumat Mübadiləsi” kimi layihə və proqramlardan səmərəli şəkildə yararlanır. Aİ-nin köməyi ilə ümumi 1 Tvinninq və 9 TAİEX layihəsi səmərəli şəkildə baş tutmuşdur (https://migration.gov.az/az/useful/24 ).

Respublikamızda “Dövlət Miqrasiya Xidməti” ilə birgə eyni zamanda miqrasiya siyasətinin icra olunmasında digər dövlət orqanlarının da bəzi funksiyaları vardır.

Ölkəmizdə miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanları aşağıdakılardır :

- “Dövlət Miqrasiya Xidməti” ;
- “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi”;
- “Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi” ;

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi” : ölkəyə gələn və ölkədən gedən miqrantların sərhəd buraxılış məntəqələrindən hərəkətinə nəzarət edir , miqrasiya edənlərin gömrük qayda və normalarına eyni zamanda vergi qanunvericiliyinə əməl etməsinə nəzarəti aparır, öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının iqtisadi-sosial maraqlarını və təhlükəsizliyini müdafiə edir ; qeyri-qanuni miqrasiyanın və qaçaqmalçılığın qabağının alması naminə lazımi tədbirlər həyata keçirir : qeyd etdiyimiz mərkəzi dövlət idarəetmə orqanları ilə birgə,

miqrasiya proseslərinin idarə olunmasında icra hakimiyyəti orqanları da rol oynayır və nəzarəti gömrük qurumlarına tapşırılmış gömrük işinə aid və başqa qanunvericiliyinə riayət olunmasına kömək olur. (https://www.customs.gov.az/)

Qeyd etdiyimiz kimi miqrasiyanın növlərindən biri də məcburi miqrasiya prosesidir. Məcburi miqrasiya baş verən zaman çox sayda şəxslər yaşayış məntəqələrindən başqa ərazilərə köç etmək məcburiyyətində olurlar. Bu proseslər baş verərkən həmin şəxslərin sosial-iqtisadi həyatında yüksək problemlər olur və məcburi miqrasiya olunmuş yerlərdə sosial-iqtisadi həyat səviyyəni gərginləşir, əmək bazarında disbalans yaranır və s. digər problemlər baş verir. Qeyd etdiyimiz bu məsələlərin nəzarətdə qalması və sözügedən prosesin idarə olunması məqsədi ilə "Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi" təsis edilmişdir və müəyyən fəaliyyət funksiyaları vardır: "Qaçqınlar və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununun icra olunması məqsədi ilə vacib olan hüquqi aktların və sənədlərin düzəldilməsini təmin edir; qaçqın və məcburi köçkünlərə dair dövlət qərarlarının həyata keçməsinin təşkil edilməsi , bu fərdlərin yerləşməsi və işlə tapması üçün lazımi təşkilatlarla birgə lazımi işlər görür, insanların məcburi tərk elədikləri ərazilərə könüllü şəkildə qayıtmasına kömək olunması məsələlərində dövlət orqanları və qurumları tərəfindən həyata keçirilən işləri əlaqələndirir: qaçqın və köçkünlərin vətəndaşlıq hüquqlarının müdafiə olunması, milli mənsubiyyətinə görə işdən çıxarılan və öz ərazilərindən qovulmuş insanların hüquqlarının qorunması və onlara dəyən maddi ziyanın bərpa olunması istiqamətində işlər görür, qaçqın və məcburi köçkünlərin ölkənin şəhər və rayonlarında uçotunu aparır, onların yaş, təhsil və yaşayış səviyyəsi barədə məlumatlarını birləşdirir və təhlil edir (http://idp.gov.az/az/content/11/parent/25 ).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Miqrasiya prosesləri  qloballaşan dövrdə bütün ölkələrin qarşılaşdığı mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu səbəbdən hər bir ölkə bu prosesləri mütəmadi araşdırmalı və bu proses vasitəsi ilə iqtisadi-sosial , siyasi inkişaf səviyyəsini daim yüksəltməlidir.

Aparılmış araşdırmalar nəticəsində məlum olmuşdur ki, əmək miqrasiyası ölkələrə təsir göstərməklə, iqtisadi-sosial inkişafı daha da irəli apara eyni zamanda ləngidə və hətta geri sala bilər. Bu baxımdan əmək miqrasiyasının iqtisadi-sosial inkişafa etdiyi təsirləri qiymətləndirmək üçün müvafiq prosesin immiqrasiya və emmiqrasiya istiqamətləri üzrə ayırmaq lazımdır. Əmək miqrantlarını daxil edən ölkələrdə müsbət təsirlər aşağıda qeyd olunanlardır:

-işçi qüvvəsinə ehtiyac yaranan fəaliyyət sahələrinin işçilərlə təmin olunması;

-yüksək ixtisaslı və potensial biliyə sahib olan işçilərin daxil olunması ilə sənaye və xidmət sahələrində yüksək məhsuldarlığa nail olunması;

-ixtisaslı kadrların, təcürəli işçilərin hazırlanması zamanı çəkilən təhsil və başqa meyarlarda yaranan məsrəflərdən azad olmaq;

-daxil olan miqrantlar hesabına iqtisadiyyatın istehsal və istehlak sahələrində fəaliyyətin intensivləşməsi və nəticə olaraq iqtisadi inkişafın yüksəlməsi.

Müvafiq prosesin mənfi təsirləri isə aşağıdakılardır:

-əmək bazarının tarazlı vəziyyətində, əlavə işçi qüvvəsi qəbul edilməsi əmək bazarında gərgin vəziyyət yaradır və bu proses davamlı baş verdiyi halda işsizliyin səviyyəsi yüksəlir;

-miqrantlar öz ölkəsində qalan ailə və qohumlarına müəyyən miqdarda pul vəsaitləri göndərirlərki bu zamanda yerli pul kütləsi ölkədən kənara çıxır.

Araşdırmalara əsasən deyə bilərik ki, əmək miqrantlarını xaric edən ölkələrdə müsbət təsirlər bunlardır:

-Əmək bazarında olan gərginliyin aradan qalxması, işsizliyin azalması, məşğulluq xidməti tərəfindən yeni iş məkanının yaradılması və işsizlik üçün ayrılan yardım ödənişlərinin həcminin azalması;

-miqrantların pul köçürmələrinin ailə gəlirini və yaşayış səviyyəsini artırması və ÜDM-un yaranmasında müsbət rolu;

-Miqrasiya prosesində iştirak edən işçilərin yüksək ixtisas səviyyəsi və yeni texnoloji məlumatlarla geri dönməsi və ölkənin inkişafında bu potensialdan yararlanılması.

Sözügedən prosesin mənfi təsirləri isə bunlardır:

-Əmək bazarında tələb və təklif nisbətində balansın pozulması və bəzi hallarda işçi çatışmazlığı probleminin yaşanması;

-“Beyin axını” prosesində, yüksək biliyə malik mütəxəssislərin ölkəni tərk etməsi nəticəsində iqtisadiyyatda ola biləcək faydanın azalması;

-Müvəqqəti miqrasiyanın daimi hal alması və bu prosesin ölkənin əhali kateqoriyalarına təsiri.

Miqrasiya proseslərinin tənzim olunmasının təkmilləşdirilməsi və bu prosesin mənfi təsirlərini kənarlaşdırıb, müsbət təsirlərdən faydalanmaq üçün bəzi tövsiyələr olunur:

-iqtisadi cəhətdən zəif inkişaf edən rayonların inkişafını daha da sürətləndirmək və yeni iş yerlərinin açılması yolu ilə rayonlardan şəhərə kütləvi axının qarşısının alınması;

-ölkəmizdə nisbətən zəif inkişaf edən fəaliyyət sahərinin inkişafını təmin etmək və yerli mütəxəssislər hazırlamaqla müvafiq sahələri xarici işçilərin asılılığından qurtarmaq;

- yerli əmək bazarında yarana biləcək gərginliyi azaltmaq üçün əmək miqrasiyası kvotasının daha da aşağı salınması;

- əvvəlki illərdə xaricə miqrasiya etmiş yüksək ixtisaslı kadrların vətənə geri dönməsi üçün və eyni zamanda indiki dövrdə “beyin axını”nın qarşısının alınması

üçün müasir texnologiyanı özündə ehtiva edən yeni iş yerlərinin yaradılması və müvafiq tədbirlərin daha da gücləndirilməsi;

- miqrasiya prosesləri üzrə beynəlxalq əməkdaşlığı və müxtəlif dövlətlərlə ikitərəfli əlaqəni daha da artırmaqla miqrasiya edənlərin hüquqlarının qorunmasına və qanunsuz miqrasiya hallarının minimuma endirilməsi;

- xarici ölkələrlə olan viza rejiminin daha da artırılması və viza alınması məsələlərini nisbətən asanlaşdırmaqla ölkəyə gələn və ölkədən gedənlərin rahat hərəkətini təmin etmək.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Abdullayev F. (2009) Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq, Bakı, "Elm və Təhsil", 328 səh.

2. Nəsibov E.M. (2014) Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab, Bakı, "Elm və Təhsil" nəşriyyatı , 240 səh.

3. Əliyev Ə. (2007) Müasir beynəlxalq hüquqları, əhali və miqrasiya problemləri, Bakı, 488 səh.

4. İbadov S. (2008) "İqtisadiyyat", Bakı, 414 səh.

5. Muradov R.Ş. (2000) Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarının formalaşması xüsusiyyətləri, Bakı, "Elm" ,340 səh.

6. Mehrəliyev E. (1991) Azərbaycanda əhalinin miqrasiyası və demoqrafik proses, "İqtisadiyyat və həyat" jurnalı, № 5

7. Muradov Ş.M. (2004) İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, "Elm", 660 səh.

8. Sərdarov M. (2004) Azərbaycanda miqrasiya prosesləri, Bakı, 254 səh.

9. Göyçayski Ş.(1979) Əhali coğrafiyası , Bakı , 337 səh.

## İngilis dilində

1. Ravenstein E.G. (1876) The Birthplace of the People and the Laws of Migration// The Geographical Magazine, vol 3, p. 173.

2. Harris J.R. , Todaro M.P. (1970) Miqration, unemployment and development, a two sector analysis, Amerikan Ekonomik Review, p.240.

## Rus dilində

1. Филиппов Н.Н., Сухов В.А. (1972) Проблемы формирования трудовых ресурсов села. с. 107.
2. Баранов Э.Ф., Бреев Б.Д. (1967) Система территориального планирования производительных сил и проблемы планирования миграции населения., с. 19.
3. Хорев Б.С. (1974) Миграционное движение населения в СССР. Москва с. 156.
4. Веревкин Л.П. (2002), Еше раз об «утечке умов» / Вестник РАН, 2002, N9, с. 797.
5. Г.Витковской. (2002) Иммиграционная политика западных стран. с188.
6. С. Хасанова.(2017) Денежные переводы трудовых мигрантов в Кыргызстане и Таджикистане: противоречивый эффект и “подводные камни”, с.189.

**İnternet resursları**

1. https://www.sociologydiscussion.com/communication/migration/migration-meaning-types-and-effects/3112
2. https://www.migration.gv.at/en/types-of-immigration/
3. http://depts.washington.edu/moving1/
4. https://en.wikipedia.org/wiki/Great_Migration_(African_American)
5. https://www.rescue.org/topic/refugees-america#how-many-refugees-are-resettled-in-the-us-and-who-decides
6. https://ru.wikipedia.org/wiki/Advance_Passenger_Information_System
7. https://guides.ll.georgetown.edu/c.php?g=592919&p=4171684
8. http://www.emmanuel-comte.eu/publication_2649.html
9. http://static.bsu.az/w16/dunya_azerbaycanlilari_tarix_ve_muasirlik_IV%20buraxiliw.pdf
10. https://www.stat.gov.az/source/demoqraphy/
11. https://www.sosial.gov.az/uploads/yhs.pdf

12. https://www.knomad.org/sites/default/files/2019-04/Migrationanddevelopmentbrief31.pdf
13. https://www.worldbank.org/en/topic/migrationremittancesdiasporaissues/brief/migration-remittances-data
14. http://iom.az/publications/files/behind_2013_AZE.pdf
15. https://www.customs.gov.az/)
16. (http://idp.gov.az/az/content/11/parent/25 ).
17. https://migration.gov.az/az/useful/4
18. https://migration.gov.az/content/pdf/2b93b6d90ee16dbfa0e160c7e29ced48.pdf

## Cədvəllərin siyahısı

**Cədvəl 1**: Azərbaycan Respublikasında 2001-2019-ci illərdə əhalinin miqrasiya göstəricilərinin dinamikası (min nəfər)....................................................................38

**Cədvəl 2**: Azərbaycan Respublikasında 2005-2019-ci illər ərzində beynəlxalq miqrasiya proseslərində iştirak edənlərin dinamikası................................................39

**Cədvəl 3**: Azərbaycan Respublikasına daimi yaşayış üçün gələn miqrantların ölkələr üzrə təsnifatı (nəfərlə)..............................................................................................40

**Cədvəl 4**: Azərbaycan Respublikasından xarici dövlətlərə daimi yaşayış üçün gedən vətəndaşların sayı.(nəfər)........................................................................................41

**Cədvəl 5**: İşçi qüvvəsini xaric edən dövlətlər üçün miqrasiyanın ola biləcək iqtisadi və soasial nəticələri.................................................................................................44

**Cədvəl 6**: İşçi qüvvəsi daxil edən dövlətlər üçün miqrasiyanın ola biləcək iqtisadi və sosial nəticələri......................................................................................................44

**Cədvəl 7**: 2020-ci ildə bəzi keçmiş SSRİ ölkələrində beynəlxalq miqrantların ümumi sayı (min nəfər).....................................................................................................51

**Cədvəl 8**: 2000-2020-ci illərdə ölkələr üzrə miqrantların ölkə əhalisindəki nisbəti ( %-lə )......................................................................................................................51

**Cədvəl 9**:Keçmiş SSRİ ölkələrində miqrasiya hesabına daxil olan pul köçürmələri milyon $ ..................................................................................................................53

## Diaqramların siyahısı

**Diaqram 1:** 2010-2020 ci illərdə kvota dinamikası..................................................46

**Diaqram 2** : 2015-2020 ci illərdə Azərbaycan Respublikasında miqrantların pul köçürmələrinin həcmi ( daxil olmalar və çıxan) mln dollar.....................................49

**Diaqram 3:** 2020-ci ildə bəzi ölkələrə daxil olan pul köçürmələrinin ÜDM-da payı (% -lə)......................................................................................................................55